RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 47 (10067) 13 mart 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Regional təhlükəsizlik Azərbaycan üçün hər zaman birnömrəli məsələ olub




**Martın 12-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumu işə başlayıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumun açılış mərasimində iştirak edib.

Əvvəlcə xatirə fotosu çəkdirildi.

XIII Qlobal Bakı Forumunu açıq elan edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **İsmail Serageldin** tədbir iştirakçılarını salamladı, forumda aparılan müzakirələrin xüsusi əhəmiyyət daşıdığını vurğulayaraq dedi: "Zati-aliləri, xanımlar və cənablar, sabahınız xeyir. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri olmaqdan şərəf hissi duyuram. XIII Qlobal Bakı Forumunda burada - Bakıda görüşmək bizdə məmnunluq hissi doğurur və mən hər birinizə bu önəmli tədbirdə iştirak etdiyinizə görə təşəkkürümü bildirirəm. Bu tədbir indi xüsusilə önəmlidir. Çünki uzun illər ərzində sanki belə də olmalı imiş kimi qəbul etdiyimiz beynəlxalq münasibətlər və çoxtərəflilik sisteminin quruluşu gərginlik altındadır və bəlkə də pozulub. Beləliklə, növbəti günlərdə bizim vəzifəmiz dünyanın hansı şəkildə ola biləcəyi və olmalı olduğunu yenidən təsəvvür etmək üçün sizin təcrübəniz və müdrikliyinizdən yararlanmaqdır. Bunun üçün nostalji hisslərlə keçmişə baxmalı deyil, daha yaxşı gələcək qurmaq üçün bələdçi rolunu oynayacaq prinsiplərə sadiqliyi nümayiş etdirməliyik. Bu prosesə başlamaq üçün zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə bir yerdə olmaqdan şərəf hissi duyuruq və o, çıxışında fikirlərini bizimlə bölüşəcək. Cənab Prezident, buyurun, söz Sizindir".

❖ ❖ ❖

Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi.

2-3

## Prezident İlham Əliyev "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumunda iştirak edib




## Aİ Şurasının prezidenti Avropanın "yaşıl şirkət"lərinə çağırış etdi

### Azərbaycanın bərpaolunan enerji sektoruna sərmayə qoymaqdan çəkinməyin



Azərbaycanın qaz ixrac etdiyi 16 ölkənin adlarını bir daha xatırladaq: Gürcüstan, Türkiyə, İtaliya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya. Bu, əlbəttə, son hədd deyil.

Avropa İttifaqi ilə enerji əməkdaşlığının digər bir istiqaməti isə bərpaolunan enerji ilə bağlıdır. Aİ ilə 2022-ci ildə imzalanmış memoranduma əsasən, əməkdaşlıq yalnız qazla məhdudlaşmayıb, həmçinin bərpaolunan enerji və "yaşıl enerji" kabel layihələrini də strateji gündəmə daxil edib.

Yaxın illərdə gerçəkliyə çevriləcək "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsi hazırda dünyanın diqqət mərkəzindədir. Belə ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Bu sazişə əsasən yaradılan, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanı birləşdirən "yaşıl enerji dəhlizi" sözügedən dörd ölkənin təmiz və təhlükəsiz enerjinin ötürülməsi üzrə ortaq strateji baxışına əsaslanır. Ümumi uzunluğu 3 min kilometr olan dəhliz vasitəsilə "yaşıl enerji" Qara dənizin dibi ilə Avropaya ötürüləcək. Bu kabel vasitəsilə ildə təxminən 4 giqavat gücündə "yaşıl enerji"nin Avropaya nəqli planlaşdırılır.

Buna Azərbaycanın "yaşıl enerji" potensialı imkan verir. Odur ki, bu sahədə layihələr həyata keçirilir: "Külək, günəş və su-elektrik enerjisinə böyük sərmayələr yatırırıq. Planımız beş və ya altı il ərzində ixraca hazır olan 6-8 giqavatlıq bərpaolunan enerjiyə malik olmaqdır.

8

## Naxçıvandan sülh və qətiyyət mesajı

Hazırda Bakı və Ankara arasındakı həmrəylik, xüsusilə iki ölkənin liderləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasındakı qarşılıqlı etimada söykənən şəxsi dostluq münasibətləri həm də regionun təhlükəsizliyinin əsas sütununa çevrilib. Təsadüfi deyil ki, hər iki ölkə terrorizm, işğal və digər təhdidlərə qarşı birgə mübarizə aparmağı bir dövlət ənənəsinə çeviriblər.



Martın 11-də Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı, ordu generalı Metin Tokelin rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfəri regional proseslərin mürəkkəbləşdiyi bir dövrdə xüsusi əhəmiyyət kəsb edirdi. Bu səfər regiondakı geosiyasi mənzərə fonunda Türkiyənin Azərbaycanın yanında olmasının əyani nümayişi idi.

9

## Ermənistan geosiyasi dönüş nöqtəsindədir

### Paşinyanın Strasburqda etdiyi çıxış İrəvanın yeni reallıqları qəbul etdiyinin göstəricisidir

Paşinyan ölkədəki revanşist qruplardan fərqli olaraq aydın dərk edir ki, Ermənistanın hərbi resursları Azərbaycanın güclənən hərbi-siyasi potensialı qarşısında dayanıqsızdır. Ona görə də Ermənistanın mövcudluğunu yalnız beynəlxalq hüquq və qarşılıqlı tanınma müstəvisində qoruya biləcəyinə diqqət çəkir. Bu həm də illərlə Rusiyanın hərbi çətiri altında təhlükəsizlik axtaran Ermənistanın kənar güclərə inamsızlığının nümayişidir. Yəni Paşinyan demək istəyir ki, ordu, yaxud kənar dəstək Ermənistanı sülh qədər etibarlı qoruya bilməz.

9

## Rusiyanın İrana göndərdiyi humanitar yardımı daşıyan yük maşınları sərhəddən keçib

Rusiyanın Azərbaycan ərazisindən keçməklə İrana göndərdiyi humanitar yardımı daşıyan yük avtomobilləri "Astara" dövlət sərhədindən buraxılış məntəqəsindən qonşu ölkəyə yola salınıb.

AZƏRTAC xəbər verir ki, yük maşınları artıq sərhəddən keçib.

Rusiya İrana humanitar yardım göndərib. Humanitar yardımı daşıyan Rusiya Fövqəladə Hallar Nazirliyinin "İl-76" təyyarəsi Lənkəran Beynəlxalq Hava Limanında yerə enib.



On üç tondan çox olan humanitar yük dərman və tibbi ləvazimatlardan ibarətdir. Humanitar yardım yüklənmiş avtomobillər İrana göndərilmək üçün "Astara" dövlət sərhədindən yola salınıb.

GLOBAL BAKU FORUM

# XIII Qlobal Bakı Forumu

# Regional təhlükəsizlik Azərbaycan üçün hər zaman birnömrəli məsələ olub

## Prezident İlham Əliyev "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumunda iştirak edib






### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli xanımlar və cənablar, sabahınız xeyir. Bütün qonaqlarımızı salamlayır və forumun bütün iştirakçılarına xoş gəlmisiniz deyirəm. İlk növbədə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə, onun həmsədrləri xanım Vike-Freyberqaya və cənab Serageldinə, İdarə Heyətinin üzvlərinə, həmçinin mərkəzin bütün kollektivinə bu illər ərzində nümayiş etdirdikləri yüksəksəviyyəli fəaliyyətə görə minnətdarlığımı bildirmək istərdim. Bu gün Nizami Gəncəvi Beynəlxalq Mərkəzi genişspektrli məsələləri əhatə edən və çox yüksək beynəlxalq nüfuza malik aparıcı beynəlxalq qurumlardan biridir.

Mərkəzin fəaliyyətini il ərzində diqqətlə izləyirəm, bir qlobal forumdan digərinə keçərkən görürəm ki, fəaliyyət sahəsi getdikcə genişlənir. Təmaslar son dərəcə fəaldır və dəyişən beynəlxalq vəziyyətə uyğun yeni yanaşmaların işlənib hazırlanmasına verilən töhfə, həqiqətən, böyük qiymətə layiqdir. Qlobal Bakı Forumuna gəldikdə isə bu, çox nüfuzlu beynəlxalq tədbirdir.

Deyərdim ki, qlobal miqyasda bu forum əsas beynəlxalq forumlarla eyni səviyyədədir: iştirakçıların - prezidentlərin, Baş nazirlərin, parlament spikerlərinin, tanınmış ictimai fiqurların, diplomatların, işgüzar dairələrin və vətəndaş cəmiyyəti nümayəndələrinin təcrübəsi baxımından olduqca yüksək səviyyədədir. Həyatımızın müxtəlif sahələrini əhatə edənlər bir araya gələrək fikir mübadiləsi aparır və təcrübə paylaşırlar, qeyd etdiyim kimi, xalqların həyatını daha yaxşı və daha təhlükəsiz etmək üçün ideyalar irəli sürürlər.

Builki forumun gündəliyi çox genişdir. Forum bir çox məsələləri əhatə edir, lakin əminəm ki, müzakirələr zamanı xüsusi diqqət bölgəmizdəki və dünyadakı mövcud vəziyyətə yönələcək. Zənnimcə, indi heç vaxt olmadığı qədər aydındır ki, təhlükəsizlik, sabitlik və müdafiə məsələləri hər bir ölkənin gündəliyində birnömrəli prioritet olmalıdır. Çünki bunlar olmadan qalan bütün məsələlər tamamilə mənasızdır. Öz inkişafı uğrunda illər, onilliklər ərzində səy göstərmiş ölkələr indi ciddi risklərlə üzləşirlər. Təhlükəsizlik və sabitlik əsas amillər olmalıdır və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik.

Regional təhlükəsizlik Azərbaycan üçün hər zaman birnömrəli məsələ olub. Çünki mən Bakıda bir çox forumlardakı çıxışlarımda qeyd etmişəm ki, işğal dövründə bizim üçün sülh və suverenliyimizin bərpası hər zaman gündəliyimizin əsas prioriteti olub. Xoşbəxtlikdən, biz artıq sülh şəraitində yaşayırıq, hələlik cəmi yeddi aydır. Bu, bir daha göstərir ki, sülh və ədalət uğrunda güclü siyasi iradə, cəsarət və sadiqlik nümayiş etdirmək kifayətdir ki, məqsədə nail olunsun. Bizə gəldikdə, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası illər, təqribən 30 il çəkdi. Bunu BMT Nizamnaməsi, onun 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququ çərçivəsində həyata keçirdik.

Biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq. Beləliklə, biz dünya miqyasında nadir bir təcrübəyə malikik - milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi. Təqribən 30 il ərzində ərazimizin təxminən 20 faizi işğal altında olmuşdur. Biz beynəlxalq ictimaiyyət tərəfindən bu məsələyə lazımi diqqətin göstərilməməsindən və münaqişə ilə məşğul olmalı olan bəzi beynəlxalq aktorların selektiv yanaşmasından əziyyət çəkirdik. Təxminən 30 il ərzində BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən qətnamələri yalnız kağız üzərində qalırdı. Beləliklə, bu bir təcrübədir, amma bu, mənfi təcrübə olmuşdur.

Daha sonra 2020-ci ilin 44 günlük Vətən müharibəsi zamanı ərazilərimizi güc vasitəsilə azad etmək təcrübəsini qazandıq və düşünürəm ki, bu da mühüm göstəricidir. Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, - müasir dedikdə son onillikləri nəzərdə tuturam, - nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi.

Üçüncü təcrübə isə sülh təcrübəsidir - sülhə necə nail olmaq olar. Bu isə asan iş deyil. Biz görürük ki, uzunmüddətli münaqişələr davam edir və qlobal xəritədə yeni gərginlik nöqtələri yaranır. Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması da nadir bir vəziyyətdir: 2023-cü ilin sentyabrında baş verən son qanlı toqquşmadan 2025-ci ilin avqustunda sülhün əldə edilməsinə qədər müddət iki ildən az çəkdi. Hesab edirəm ki, bu, normallaşmanın görünməmiş sürətidir və güclü siyasi iradənin mövcudluğu və düşmənçiliyin əbədiyyətə qədər davam edə bilməyəcəyinin, müharibənin sona çatmalı olduğunun dərk edilməsi sayəsində mümkün oldu. Bu, iki ölkə tərəfindən verilmiş bir qərar idi və indi biz, qeyd etdiyim kimi, yeddi aydır sülh şəraitində yaşayırıq. Biz artıq sülhün üstünlüklərini görürük. Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur.

Zənnimcə, dünyada hazırda baş verənlər - yeni gərginlik nöqtələrinin yaranması və uzunmüddətli mövcud münaqişələr beynəlxalq davranış strukturuna təhdid təşkil edir. Bu həmçinin beynəlxalq hüquqa təhdiddir. Beynəlxalq hüquqa və normalara hörmət edilməyəndə və beynəlxalq təşkilatların qətnamələri nəzərə alınmayanda ölkələrin ərazi bütövlüyü pozulur.

İşğala, etnik təmizləməyə və soyqırımına məruz qalmış, suverenliyini, ərazi bütövlüyünü və ləyaqətini güc tətbiqi ilə bərpa etmiş, daha sonra isə o zaman məğlub olmuş düşmənə sülh təklif etmiş ölkə olmağımız - hesab edirəm ki, bu, beynəlxalq ictimaiyyətlə paylaşa biləcəyimiz nadir bir təcrübədir. Mən dəfələrlə demişəm ki, biz Ermənistanla sülhü yalnız kağız üzərində əldə etməmişik, sülh sazişi yeddi ay əvvəl paraflandı və Birgə Bəyanat qəbul olundu. Lakin biz artıq real həyatda sülhü təmin etmişik. Sərhədimizdə sakit vəziyyət hökm sürür, atəş açılmır, artıq heç bir qurban və itki yoxdur.

Biz Ermənistana müxtəlif istiqamətlərdən malların daşınmasına qoyulmuş bütün məhdudiyyətləri aradan qaldırdıq. Hətta Ermənistanla ticarəti bərpa etmişik. Onlar üçün həyati əhəmiyyət kəsb edən neft məhsullarının ixracına başladıq və bununla da göstərdik ki, biz uzunmüddətli deyil, əbədi sülhə sadiqik. Bu, bizim strategiyamız və siyasətimizdir və bir daha onu nümayiş etdirir ki, Azərbaycan sülhsevər ölkədir. İkinci Qarabağ müharibəsi və daha sonra antiterror əməliyyatı zamanı bizi ittiham edənlər ya uzaqgörən deyildilər, ya da qərəzli idilər. Çünki bizim gördüyümüz hər bir iş beynəlxalq hüquqa uyğun idi, biz gücdən istifadə edərək sülhə nail olduq və bu gün bunu nümayiş etdiririk.

Bəzən bunu etmək zəruridir, xüsusilə də əmin olduğunuz halda ki, haqlısınız. O zaman sizi əngəlləməyə çalışanları, maraqlarınıza xələl gətirmək istəyənləri nəzərə almamalısınız. Həmçinin hesab edirəm ki, bu, müharibə aparanlarla paylaşa biləcəyimiz daha bir təcrübədir.

Biz Ermənistanla sülhə nail olduq, - biz deyərkən Azərbaycanı nəzərdə tuturam, - israr etdik ki, bunu vasitəçilərsiz təmin edək. Özlərini Minsk qrupu adlandıran vasitəçilərin 28 illik fəaliyyəti bir fəlakət idi. Həmsədrlərin məqsədi münaqişəni dondurmaq, onu əbədiləşdirmək və hər iki ölkəyə qarşı təzyiq aləti kimi istifadə etmək idi. Biz qərara gəldik ki, bu dırnaqarası vasitəçilikdən qurtulmalıyıq və ikitərəfli formatda - heç bir üçüncü tərəf olmadan fəaliyyətə başlayan kimi sülhə nail olduq. Beləliklə, bu bir təcrübədir və bu, sadəcə, nəzəriyyə deyil, bu, bizim yaşadığımız, indi isə şahid olduğumuz bir reallıqdır. Hesab edirəm ki, mövcud münaqişələrin həlli istiqamətində çalışarkən bu məsələ mütləq nəzərə alınacaq.

Xüsusilə indi paylaşa biləcəyimiz digər vacib bir təcrübə enerji təhlükəsizliyidir, hansı ki, hazırda müəyyən dərəcədə pozucu təsir göstərir. Biz görürük ki, neft və qaz qiymətlərinin kəskin yüksəlişi yalnız istehlakçılar üçün deyil, geniş mənada bir çox problemlər yaradır. Kimsə düşünürsə ki, bu tarazlaşdırılmamış qiymət neft istehsalçıları və ixracatçıları üçün faydalıdır, bu yanlışdır. Çünki bir çox ölkələrin, neft və digər faydalı yanacaq istehsal və ixrac edən ölkələrin suveren fondları var və bu fondlar müxtəlif maliyyə alətlərinə, o cümlədən istiqrazlara investisiya qoyurlar. Birjalar çökdükdə isə bu ölkələr yüksək neft qiymətindən qazandıqlarından daha çox itkiyə məruz qalırlar. Buna görə də biz OPEC+ formatının məsuliyyətli üzvü olaraq, tarazlı və proqnozlaşdırıla bilən neft qiymətinin tərəfdarıyıq, ortaq həllin tapılmasına böyük səylər göstərmişik və OPEC+-dakı vasitəçilik fəaliyyətimiz yüksək qiymətləndirilir.

Bu gün enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin ayrılmaz hissəsi olaraq əvvəllər heç vaxt olmadığı qədər önəm daşıyır. Azərbaycan bütün enerji seqmentlərinin - neft, qaz, neft məhsulları, neft-kimya məhsulları və elektrik enerjisinin istehsalı və ixracı ilə məşğuldur. Bazarda tələb və tədarük coğrafiyasının genişlənməsi ilə bağlı biz ixracımızı, xüsusilə təbii qaz və elektrik enerjisinin ixracını artırmağı planlaşdırırıq. Keçən il - düz bir il əvvəl görüşdüyümüz zaman bizdən qaz alan ölkələrin sayı 12 idi. Bir il ərzində bu göstərici 16-ya yüksəldi və onların hamısı Azərbaycandan qazı boru kəmərləri vasitəsilə alır. Beləliklə, boru kəmərləri vasitəsilə təbii qaz ixracatçısı kimi, ölkələrin coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir.

*Ardı 3-cü səh.*

GLOBAL BAKU FORUM

# XIII Qlobal Bakı Forumu

# Regional təhlükəsizlik Azərbaycan üçün hər zaman birnömrəli məsələ olub

## Prezident İlham Əliyev "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumunda iştirak edib













### Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 2-ci səh.*

İxrac həcmi artmaqda davam edir və artacaq, bu isə bir çox ölkə üçün enerji təhlükəsizliyi baxımından mühüm amildir. Azərbaycan beynəlxalq bazara etibarlı neft təchizatçısı kimi enerji təhlükəsizliyinə töhfəsini verməyə davam edəcək.

Mövcud çağırışlar kontekstində bu gün əhatə etmək istədiyim üçüncü mövzu isə bağlılıqdır. Biz görürük ki, münaqişələr ənənəvi nəqliyyat marşrutlarının pozulmasına səbəb olur və bu, həm insanlar, həm ölkələr, həm iqtisadiyyat, həm də tədarük zəncirləri üçün böyük çətinliklər yaradır. Bağlılıq və nəqliyyat marşrutları pozulduqda dünya ölkələrinin əksəriyyəti çox çətin vəziyyətlə üzləşir. Azərbaycan qazıntı yanacağı növlərinin satışından əldə etdiyi gəlirlər sayəsində nəqliyyat və logistika infrastrukturuna böyük sərmayə yatırıb. Bu gün biz "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri üzrə əvəzolunmaz tərəfdaşıq və əslində, həm Orta dəhlizdə, həm də "Şimal-Qərb" dəhlizində fəal iştirak edən və investisiya yatıran yeganə ölkəyik. Azərbaycan ərazisində hər iki dəhliz üzrə tikinti layihələri tam şəkildə başa çatdırılmışdır.

İndi isə biz mövcud dəhlizlərin yükaşırma qabiliyyətinin artırılmasına əlavə vəsait yatırırıq, çünki Azərbaycan ərazisindən istifadəyə tələbat artır. Biz bir çox ölkələr, həm Azərbaycanın şərqində, həm də qərbində yerləşən ölkələrin mühüm tranzit ehtiyaclarını təmin edirik. Hazırda isə Ermənistanla sülh əldə edildikdən sonra Orta dəhlizin yeni istiqaməti üzərində yaxından işləyirik, bu istiqamət Ermənistan ərazisindən keçəcək. Ermənistan isə bu gün belə olmadığı halda, müstəqil tarixində ilk dəfə tranzit ölkəsi olacaq. Bu isə bizə Azərbaycanın iki hissəsini - əsas hissəsi və Naxçıvan Muxtar Respublikasını davamlı nəqliyyat, enerji, optik kabel və elektrik xətləri, həmçinin potensial olaraq boru kəmərləri vasitəsilə birləşdirməyə imkan verəcək. Beləliklə, bu, bizim üçün, yəni ümumilikdə hamı üçün qarşılıqlı uduşlu vəziyyət yaradacaq.

Bu yeni fürsətdən həqiqətən yararlanmaq olar, çünki biz Azərbaycanın iki hissəsini nəqliyyat infrastrukturu ilə birləşdirəcəyik. Artıq qeyd etdiyim kimi, yeni istiqamət yaradacağıq, bu isə bir çox ölkə üçün faydalı olacaq. Vaxtınızı çox almamaq üçün çıxışımı burada yekunlaşdıracağam, yalnız təcrübəmizin olduğu məsələlərə və bu gün beynəlxalq gündəmin birnömrəli mövzularına toxunmaq istədim.

Son olaraq, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə əməkdaşlığımıza qayıdaraq, bir daha onları təbrik etmək və COP29-un uğurlu keçirilməsinə verdikləri töhfəyə görə minnətdarlığımı bildirmək istərdim. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ondan çox panel müzakirəsi təşkil etmiş, çoxsaylı müzakirələrdə iştirak etmiş və COP29-un uğuruna fəal töhfə vermişdir.

Bu il biz daha bir vacib qlobal beynəlxalq tədbir - Ümumdünya Şəhərsalma Forumuna evsahibliyi edəcəyik. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətini və bütün kollektivini forumda fəal iştiraka dəvət edirəm. Ümid edirəm ki, bir neçə aydan sonra Bakıda sizlərlə görüşüb dünyada sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsi kimi ortaq məqsədimizə dair müzakirələrimizi davam etdirəcəyik. Diqqətinizə görə təşəkkür edirəm.

❖ ❖ ❖

Daha sonra çıxış edən Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **Vayra Vike-Freyberqa** forumun dünyanın qlobal çağırışları ilə bağlı fikir mübadiləsi aparılmasına geniş imkan yaratdığını qeyd edərək dedi: "İstərdim, mən də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasını salamlama fikirlərinə qatılım və Sizin burada olmağınızdan məmnunluğumu ifadə edim. Eyni zamanda biz Azərbaycan Respublikasına təşəkkürümüzü bildiririk ki, artıq 13-cü dəfədir bu foruma evsahibliyi edir və Prezident İlham Əliyev də çıxışında bu tədbirin əhəmiyyətini qeyd etdi. Xatırlayıram ki, bir çox il əvvəl biz bu təşəbbüsə başlayanda ideya ilə Prezident qarşısında çıxış etdik və Prezident Nizami Gəncəvinin doğum günü ilə əlaqədar tədbirə dəvət etdi və hər il bu tədbirlərin keçirilməsinin əhəmiyyətini qeyd etdi, dedi ki, Azərbaycan bu tədbirə evsahibliyi etməlidir. Cənab Prezident bizim o vaxt keçirdiyimiz tədbirdən daha böyük tədbirlərin Azərbaycanda keçirilməsinin təşəbbüsünü irəli sürdü və hazırda bu gün miqyas doğrudan da böyükdür".

❖ ❖ ❖

Qeyd edək ki, artıq uzun illərdir Qlobal Bakı Forumu qlobal problemlərin təhlili, siyasi dialoqun təşviqi və beynəlxalq tərəfdaşlığın möhkəmləndirilməsi baxımından mühüm strateji platforma statusunu qazanıb. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşəbbüsü ilə təşkil olunan bu tədbir müasir çağırışların həllinə və qlobal əməkdaşlığa əhəmiyyətli töhfələr verir.

"Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusuna həsr olunan budəfəki forumda dünyanın müxtəlif regionlarından nüfuzlu siyasi xadimlər, o cümlədən fəaliyyətdə olan və sabiq prezidentlər, Baş nazirlər, həmçinin BMT strukturlarının rəhbərləri, alimlər və ekspertlər iştirak edirlər.

Martın 14-dək davam edəcək XIII Qlobal Bakı Forumunda "Qlobal təhlükəsizlik və güc tarazlığı: Beynəlxalq hüquqa hörmət. Yeni məsələlər, yeni çağırışlar", "Çoxtərəflilik böhran içində: Qlobal əməkdaşlığı yenidən düşünmək", "BMT 80+", "Çin və Qlobal İdarəetmə Təşəbbüsü", "Danışıqlardan kənarda: COP-u yaşatmaq uğrunda mübarizə", "Orta dəhliz və Avrasiya Bağlantısı Qapısı", "Afrika bu gün və sabah", "2030 gündəliyinin sürətləndirilməsi: İnklüziv inkişaf və davamlı əlaqəlilik", "Rəqəmsal gələcək: süni intellekt, idarəetmə və innovasiyanın etikası", "Mənzil üçün qlobal əməkdaşlıq: WUF13 üçün perspektivlər", "Beynəlxalq sistemin yenidən qurulmasının axtarışında" mövzularında panellər təşkil olunacaq.

XIII Qlobal Bakı Forumunda keçiriləcək sessiyalar parçalanmış mövcud mənzərənin müxtəlif sahələrdə - hərbi güc, iqtisadi məcburiyyət, enerji asılılığı, texnoloji imkanlar, informasiya nəzarəti və strateji təchizat marşrutlarında necə təzahür etdiyini araşdıracaq. Müzakirələr həmçinin yeni formalaşan sahələrin - kritik minerallar, təmiz enerji infrastrukturu, rəqəmsal bağlılıq və qabaqcıl texnologiyaların zəif tərəfləri necə dərinləşdirdiyini və dövlət siyasətini necə mürəkkəbləşdirdiyini nəzərdən keçirəcək.

# XIII Qlobal Bakı Forumu yüksək səviyyədə təşkil olunub

## Prezident İlham Əliyev Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü ilə görüşüb



**Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Jelka Tsviyanoviç ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevin Jelka Tsviyanoviçlə görüşləri məmnunluqla xatırlandı, ölkələrimiz arasında münasibətlərin genişlənməsi qeyd edildi, müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu.

Jelka Tsviyanoviç ənənəvi olaraq keçirilən Qlobal Bakı Forumunda bir neçə dəfə iştirak etdiyini bildirdi.

Görüşdə XIII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunuldu, bu tədbirin yüksək səviyyədə təşkil olunduğu qeyd edildi. Forumda həmişə olduğu kimi, bu dəfə də xüsusilə dünyada hazırkı vəziyyət fonunda çox aktual qlobal məsələlərin müzakirə edildiyi vurğulandı.

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 147-ci kitabı çapdan çıxıb

"Azərbaycan ləyaqətli ölkədir, güclü ölkədir, heç kimə məsləhət görmürük ki, nə vaxtsa bizə qarşı hansısa bəd əməllər haqqında düşünsün. Hər halda son 80 il ərzində dünyada Azərbaycan qədər tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır. İndi dünyada gedən prosesləri görürsünüz. Müxtəlif yerlərdə toqquşmalar, müharibələr, hərbi cinayətlər baş alıb gedir. Amma heç kim tam qələbə qazanmayıb. Müharibələr davam edir, daha böyük coğrafiyanı əhatə edir və yəqin ki, davam edəcək. Yəni bax, bu siyasi məsələlərin inkişafı bunu göstərir. Tək yeganə ölkə bizik. Yeganə xalq bizik ki, tam Qələbə qazandıq, mütləq Qələbə qazandıq. Düşməni kapitulyasiya aktını imzalamağa məcbur etdik və eyni zamanda sülhün təminatçısı da Azərbaycandır".

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 147-ci kitabında yer alan bu sözləri dövlətimizin başçısı 2025-ci il avqustun 21-də Kəlbəcər şəhərində 1-ci yaşayış kompleksindəki evlərə köçən sakinlərlə görüşündə söyləyib.




Çoxcildliyin bu kitabında toplanmış materiallar 2025-ci ilin avqust-sentyabr aylarını əhatə edir.

Bu nəşrə Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfərinə, Prezident Donald Tramp ilə görüşünə, "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsinin paraflanması mərasiminə dair materiallar, Azərbaycan və ABŞ prezidentlərinin, Ermənistanın Baş nazirinin mətbuata bəyanatlarla çıxışlarının mətnləri daxil edilib. Oxucular yeni kitabda Azərbaycan Respublikası Prezidentinin, Amerika Birləşmiş Ştatları Prezidentinin və Ermənistan Respublikası Baş nazirinin Birgə Bəyannaməsinin mətni, habelə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumunun imzalanması mərasimi haqqında materialla və dövlətimizin başçısının Azərbaycan media nümayəndələrinə müsahibəsi ilə də tanış ola bilərlər.

Azərbaycan Prezidenti ötən ilin avqust ayında Gəncə və Kəlbəcər şəhərlərinə səfər edib. Dövlətimizin başçısı Kəlbəcərdə 4-cü yaşayış kompleksinin, şəhər parkının təməlqoyma mərasimlərində, "Balland-Kəlbəcər balı, arı və arıçılıq məhsulları mağazası"nın açılışında iştirak edib, Kəlbəcər şəhərində 3-cü yaşayış kompleksinin təməlini qoyub, 1-ci yaşayış kompleksinin ərazisində fərdi və çoxmərtəbəli evlərdə yaradılmış şəraitlə tanış olub, buraya köçən sakinlərlə görüşdə çıxış edib. Prezident həmçinin Ağdərə rayonunun Vəngli kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, Kolatağ və Vəngli kəndlərinin sakinləri ilə görüşüb. Bütün bunlar haqqında informasiyalar 147-ci kitabda verilib.

Çoxcildliyin bu kitabında Prezident İlham Əliyevin Türkmənistana işgüzar səfərinə, Azərbaycan Respublikası, Özbəkistan Respublikası və Türkmənistan arasında yüksəksəviyyəli görüşdə çıxışına, görüşün yekunlarına dair mətbuata bəyanatlarla çıxışlara, sənədlərin imzalanması mərasiminə dair materiallar da yer alıb.

Oxucu bu kitabda Azərbaycan Prezidentinin Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsinin mətni ilə də tanış ola bilər. Azərbaycan Prezidenti avqust ayının 30-dan sentyabrın 3-dək Çində işgüzar səfərdə olub, bir çox görüş keçirib, habelə ŞƏT+ formatında görüşdə çıxış edib. Bütün bunlar haqqında informasiyalar yeni kitabda toplanıb.

Dövlətimizin başçısı sentyabr ayında Qarabağ bölgəsinə səfər edib, Xocavənd rayonunun Hadrut qəsəbəsində inşa olunmuş məscidin açılışında iştirak edib, Sos kəndində, Qırmızı Bazar qəsəbəsində görülən işlərlə tanış olub, qəsəbədə Qırmızı Bazar, Hadrut və Sos kəndlərinin sakinləri ilə görüşüb. Prezident Xankəndidə Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsi tədris korpusunun açılış mərasimində iştirak edib. Ölkə rəhbəri Xocalı rayonunun Şuşakənd, Seyidbəyli, Daşbulaq, Badara kəndlərində görülən işlərlə tanış olub, Badara kəndində Daşbulaq, Seyidbəyli, Şuşakənd və Badara kəndlərinin sakinləri ilə görüşüb.

Prezident Şuşada isə ICESCO-nun baş direktoru Səlim bin Məhəmməd əl-Maliki, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Selçuk Bayraktaroğlu, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşlər keçirib. Yeni nəşrdə həmin görüşlər haqqında da məlumat verilib.

Çoxcildliyin buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Bu cildin hazırlanmasında da Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 7, maddə 649, № 8, maddələr 746, 754, № 9, maddə 820, № 11, maddə 1018; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli 588 nömrəli, 28 yanvar tarixli 593 nömrəli, 11 fevral tarixli 598 nömrəli və 23 fevral tarixli 604 nömrəli fərmanları) 4.47-2-ci bəndinə "dedikdə," sözündən sonra "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2026-cı il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında hökumət təcrübələrinin mübadiləsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il fevralın 4-də Dubay şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında hökumət təcrübələrinin mübadiləsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Birləşmiş Ərəb Əmirlikləri Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2026-cı il*

# "Bələdiyyələrin vahid informasiya sisteminə ötürüləcək və həmin sistemdən əldə ediləcək məlumatların dairəsi"nin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 76** **Bakı şəhəri, 11 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 224-VIIQD nömrəli Qanununun tətbiqi və "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 162 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2025-ci il 11 iyul tarixli 440 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Bələdiyyələrin vahid informasiya sisteminə ötürüləcək və həmin sistemdən əldə ediləcək məlumatların dairəsi" təsdiq edilsin *(əlavə olunur)*.

2. Bələdiyyələrin vahid informasiya sisteminə ötürüləcək və həmin sistemdən əldə ediləcək məlumatlar Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"na uyğun olaraq əldə edilir.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi "Bələdiyyələrin vahid informasiya sisteminə ötürüləcək və həmin sistemdən əldə ediləcək məlumatların dairəsi"ndə nəzərdə tutulmuş dövlət orqanlarının (qurumlarının) qeyd olunan məlumatlarının toplandığı informasiya sistemlərinin (ehtiyatlarının) bələdiyyələrin vahid informasiya sisteminə Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə inteqrasiyasını təmin etsin.

4. "Bələdiyyələrin vahid informasiya sisteminə ötürüləcək və həmin sistemdən əldə ediləcək məlumatların dairəsi"ndə qeyd olunan dövlət orqanları (qurumları) fəaliyyət istiqamətlərinə uyğun olaraq bu Qərardan irəli gələn digər məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# "Azərbaycan Respublikasının kişi cinsli vətəndaşlarının ilkin hərbi qeydiyyata alınması Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 78** **Bakı şəhəri, 12 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 111-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 277 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının kişi cinsli vətəndaşlarının ilkin hərbi qeydiyyata alınması Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# "İnzibati cərimələrin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 74** **Bakı şəhəri, 10 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 iyul tarixli 446 nömrəli Fərmanının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İnzibati cərimələrin qaytarılması Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 aprel tarixli 138 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 72** **Bakı şəhəri, 6 mart 2026-cı il**

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi haqqında Əsasnamənin, Nazirliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin ümumi say tərkibinin və Nazirlikdə ali hərbi rütbəli vəzifələrin siyahısının təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli 54 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 oktyabr tarixli 514 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 aprel tarixli 138 nömrəli Qərarında (Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2025, № 4 (II kitab), maddə 425, № 11, maddə 1085) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"ndə dəyişiklik təsdiq edilsin (əlavə olunur).

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"ndə dəyişiklik təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərar 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu" ilə müəyyən olunmuş tənzimlənən ozondağıdıcı maddələrin siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 sentyabr tarixli 203 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 75** **Bakı şəhəri, 11 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu" ilə müəyyən olunmuş tənzimlənən ozondağıdıcı maddələrin siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 sentyabr tarixli 203 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 9, maddə 818 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. "Ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu" ilə müəyyən olunmuş tənzimlənən ozondağıdıcı maddələrin Siyahısı" yeni redaksiyada verilsin *(əlavə olunur)*.

2. 2-ci hissə ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib

Martın 12-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.

İclasın müzakirəsinə YAP-ın 2025-ci il üzrə maliyyə hesabatı təqdim olunub.

Auditorlar Palatasının üzvü Elza Süleymanova çıxış edərək maliyyə hesabatının mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq mükəmməl səviyyədə hazırlandığını, partiyanın hesabat dövrü üçün maliyyə vəziyyətini və maliyyə fəaliyyətinin nəticələrini tam əks etdirdiyini vurğulayıb.

Sonra 2025-ci il üzrə maliyyə hesabatı İdarə Heyətinin üzvləri tərəfindən təsdiq edilib.

Daha sonra cari məsələlərlə bağlı müzakirələr aparılaraq müvafiq qərarlar qəbul olunub.

Yekunda YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov mütləq suverenliyini bərpa edərək keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuş Azərbaycanın "Konstitusiya və Suverenlik İli" olan 2025-ci ildə mühüm uğurlara imza atmaqla milli gücünü və beynəlxalq nüfuzunu daha da artırdığını vurğulayıb. O, qarşıda duran hədəflərə çatmaq üçün Yeni Azərbaycan Partiyasının da üzərinə böyük məsuliyyətin düşdüyünü bildirərək bu kontekstdə partiyanın Nizamnamə və Proqramından irəli gələn vəzifələrin mütəşəkkil qaydada yerinə yetirilməsinin önəmini qeyd edib.






Ölkəmizin "Şəhərsalma və Memarlıq İli"ndə də ardıcıl nailiyyətlər qazanacağına əminliyini ifadə edən YAP Sədrinin müavini iclas iştirakçılarını qarşıdan gələn Novruz və Ramazan bayramları münasibətilə təbrik edərək onlara möhkəm cansağlığı və fəaliyyətlərində uğurlar arzulayıb.

*"Azərbaycan"*

# 34 il sədaqətli xidmət nümunəsi



Martın 12-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunları yaranmasının 34-cü ildönümünü qeyd edib. Bu münasibətlə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və hərbi qulluqçular Fəxri xiyabana gedərək Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.



Sonra respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş Vətən övladlarının uyuduğu Şəhidlər xiyabanı ziyarət olunub.

Daxili Qoşunların Baş İdarəsində təntənəli mərasim keçirilib. Tədbirdə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların, eləcə də bütün şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla anılıb.

Əlamətdar gün münasibətilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov Daxili Qoşunların tarixinin parlaq hadisələrlə zəngin və Vətənimizin yeni tarixi ilə sıx bağlı olduğunu, xalqa və dövlətə sədaqətlə xidmət edən Daxili Qoşunların hərbi qulluqçularının qarşıya qoyulmuş tapşırıqları hər zaman layiqincə yerinə yetirdiklərini, sabitliyin təminatçılarından və dövlətçiliyin dayaqlarından birinə çevrildiyini vurğulayıb.

Nazir dövlət başçısının ali diqqət və qayğısı sayəsində Daxili Qoşunların maddi-texniki, hərbi tədris bazasının və institutunun, kazarma-yaşayış fondunun yaxşılaşdırılması, hərbi hissələrin müasir silah, texnika, xüsusi vasitələrlə təchizatı üçün tədbirlər həyata keçirildiyini bildirib. O, DİN-in Daxili Qoşunlarının ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində göstərdiyi şücaəti, respublikamızın hər yerində, o cümlədən işğaldan azad edilmiş şəhər və rayonlarda hərbi qulluqçuların polis əməkdaşları ilə birlikdə ictimai asayişin, təhlükəsizliyin qorunmasında göstərdiyi xidmətlərini məmnunluqla qeyd edib.

Bildirilib ki, ölkədə ictimai asayişin və hüquq qaydasının qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, cinayətkarlığa qarşı mübarizədə, eləcə də keçirilən mötəbər beynəlxalq tədbirlər zamanı Daxili Qoşunların şəxsi heyəti üzərinə düşən xidməti vəzifələri layiqincə yerinə yetirib.

Nazir xidmətdə fərqlənən hərbi qulluqçuların peşə bayramı ərəfəsində dövlət mükafatlarına layiq görülməsinin möhtərəm Prezidentin Daxili Qoşunların şəxsi heyətinin əməyinə verdiyi ali dəyərin və yüksək etimadının əyani ifadəsi olduğunu diqqətə çatdırıb. Sonra daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov və komandanın birinci müavini - Qərargah rəisi general-mayor Tofiq Hüseynov məruzə ilə çıxış ediblər.

Sonda xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunun təltif edilməsi barədə daxili işlər nazirinin və nazir müavini - daxili qoşunların komandanının imzaladıqları əmrlər elan olunaraq mükafatlar sahiblərinə təqdim edilib.

*"Azərbaycan"*

# "Şəhərsalma və memarlıqda dövlətçilik prinsipləri"

Martın 12-də "Şəhərsalma və Memarlıq İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) və "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin birgə təşkilatçılığı ilə "Şəhərsalma və memarlıqda dövlətçilik prinsipləri" mövzusunda tədbir keçirilib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vüsal Aslanov çıxış edərək bildirib ki, müasir şəhərin inkişafı yalnız yeni binaların tikilməsi ilə ölçülmür: "Şəhərin necə planlaşdırılması, nəqliyyat sisteminin necə qurulması və insanların gündəlik həyatının necə təşkil olunması bu inkişafın əsas göstəricilərindəndir. Bu baxımdan, şəhər nəqliyyatı, xüsusilə də metropoliten sistemi şəhərsalmanın ən vacib elementlərindən biridir. Metro təkcə sərnişin daşıyan nəqliyyat vasitəsi deyil. O, şəhərin müxtəlif hissələrini bir-biri ilə birləşdirən, şəhərin inkişaf istiqamətlərini formalaşdıran mühüm infrastrukturdur".

Vüsal Aslanov qeyd edib ki, Bakı Metropoliteni hər gün yüz minlərlə sərnişinə xidmət göstərərək paytaxtın sosial və iqtisadi həyatının fasiləsizliyini təmin edir: "Eyni zamanda Bakı metrosu paytaxtın memarlıq mühitinin də vacib hissəsidir. Bir çox stansiyamız milli memarlıq üslubunu və müasir həlləri birləşdirərək şəhərin simasına xüsusi rəng qatır. Bu da onu göstərir ki, metro yalnız nəqliyyat infrastrukturu deyil, həm də memarlıq və mədəni mühitin mühüm elementidir".

Bakı metrosunun inkişafında Ümummilli Lider Heydər Əliyevin müstəsna rolunun olduğunu vurğulayan V.Aslanov əlavə edib ki, Ulu Öndər paytaxtın gələcək inkişafını nəzərə alaraq metropolitenin genişləndirilməsini strateji məsələ kimi qiymətləndirirdi: "Təsadüfi deyil ki, Ulu Öndər Bakı Metropolitenini Azərbaycan xalqının milli sərvəti adlandırırdı. Onun dövlətçilik yanaşması bu gün də ölkəmizdə həyata keçirilən böyük infrastruktur layihələrinin əsasını təşkil edir. Bu strateji xətt hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının diqqəti və dəstəyi nəticəsində Bakı Metropolitenində geniş modernləşmə işləri həyata keçirilir, yeni stansiyalar istifadəyə verilir, vaqon parkı yenilənir və infrastruktur müasirləşdirilir. Metro sisteminin inkişafı paytaxtın şəhərsalma siyasətinin əsas istiqamətlərindən biri olaraq daim diqqət mərkəzində saxlanılır. Paytaxtın nəqliyyat sistemində ən mühüm məsələlərdən biri hesab olunan "Yaşıl" və "Qırmızı" xətlərin ayrılması istiqamətində işlərə başlanılıb. Bu layihə metronun daşıma imkanlarının əhəmiyyətli dərəcədə artırılmasını, eləcə də sərnişinlərə dayanıqlı, komfortlu xidmət göstərilməsini təmin edəcək. Qarşıdakı 5 il ərzində metro sisteminin genişləndirilməsi də nəzərdə tutulur. Dövlət proqramına uyğun olaraq 10 yeni metro stansiyasının tikintisi, həmçinin hər bir xətt üzrə ayrıca xidmət göstərəcək müasir depoların yaradılması və 300 ədəd yeni vaqon parkının alınması planlaşdırılır. Eyni zamanda şəhər nəqliyyatının inkişafı yalnız metro ilə məhdudlaşmır. Yaxın gələcəkdə Bakı küçələrində müasir tramvayların hərəkətə başlaması da nəzərdə tutulur. Bu layihə şəhərin nəqliyyat imkanlarını genişləndirməklə yanaşı, paytaxtımızın memarlıq və şəhər mühitinə də xüsusi gözəllik qatacaq. Bütün bunlar Bakı şəhərinin gələcək urban inkişafı üçün mühüm əhəmiyyət daşıyır".

Vüsal Aslanov çıxışının sonunda Yeni Azərbaycan Partiyasının sıralarına yeni qoşulan metropoliten əməkdaşlarını təbrik edib, onların dövlətçilik prinsiplərinə sadiq fəaliyyət göstərəcəklərinə əminliyini bildirib.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, müasir dünyada şəhərsalma siyasəti ölkələrin inkişaf strategiyasının önəmli komponentlərindən birini təşkil edir. Onun sözlərinə görə, qlobal urbanizasiya prosesi, sürətli texnoloji tərəqqi və günümüzün ekoloji çağırışları bu sahədə yeni yanaşmaların meydana çıxmasını şərtləndirir: "Ənənə ilə müasirliyin vəhdətini yaradaraq uğurlu şəhərsalma nümunəsi ortaya qoyan Azərbaycanda bu sahədə həyata keçirilən tədbirlər, o cümlədən genişmiqyaslı quruculuq işləri davamlı sosial-iqtisadi inkişaf xüsusunda mühüm əhəmiyyət daşıyır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin istər SSRİ dövründə, istərsə də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi zaman şəhərsalma siyasəti milli-strateji prioritetlərdən biri kimi müəyyənləşdirilərək respublikanın bütün bölgələrində olduğu kimi, paytaxt Bakıda da dövrün çağırışlarına uyğun məqsədyönlü tədbirlər həyata keçirilmişdir ki, bu kontekstdə Bakı Metropoliteni şəbəkəsinin genişləndirilməsi də ayrıca qeyd edilməlidir. Heydər Əliyev siyasətini bütün istiqamətlərdə müvəffəqiyyətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə görülən işlər isə paytaxt Bakının modernləşməsinə və regionların sosial-iqtisadi inkişafına təkan verməklə şəhərsalma təcrübəsi baxımından mütərəqqi nümunə yaratmışdır".

YAP Sədrinin müavini bildirib ki, Azərbaycanın ərazi bütövlüyü və mütləq suverenliyinin bərpasından sonra meydana çıxan sosial-iqtisadi və mədəni-humanitar çağırışlar fonunda şəhərsalma siyasətində yeni mərhələ başlanmışdır: "İşğaldan azad edilmiş ərazilərə "Böyük qayıdış" proqramının mühüm tərkib hissəsi kimi innovativ yanaşmalar əsasında sosial inklüzivlik, ekoloji təhlükəsizlik, o cümlədən "yaşıl infrastruktur" quruculuğu əsas götürülməklə "ağıllı şəhər" konsepsiyası həyata keçirilməkdədir ki, bu da dayanıqlı məskunlaşmanın, o cümlədən müasir standartlara uyğun yüksəkkeyfiyyətli həyat şəraitinin təmin olunmasına əlverişli zəmin yaradır".

Tahir Budaqov vurğulayıb ki, Azərbaycanın çağdaş tələblərə adekvat şəhərsalma siyasəti ərazi bütövlüyünün qorunması, davamlı iqtisadi inkişafın təmini, sosial rifahın yüksəldilməsi, tarixi-mədəni irsin mühafizəsi kimi dövlətçilik prinsiplərinə söykənməklə milli gücümüzün artmasına xidmət göstərir: "Bütün bu nailiyyətlər və gələcəyə yönəlik aydın strateji baxış dünya miqyasında Azərbaycan təcrübəsinə böyük maraq göstərilməsini şərtləndirir. Təsadüfi deyil ki, BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsinə dair qərarın qəbulu Azərbaycanın dayanıqlı inkişaf siyasətinə, o cümlədən beynəlxalq müstəvidə şəhərsalma prosesinə töhfələrinə verilən yüksək qiymətin və etibarlı tərəfdaş imicinin bariz göstəricisidir. Şübhə yoxdur ki, müstəqil və qüdrətli Azərbaycan dövləti bu mötəbər tədbirə də uğurla evsahibliyi edəcəkdir. Əminəm ki, hər zaman milli prioritetlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsində yüksək fəallığı ilə seçilən Yeni Azərbaycan Partiyasının çoxminli üzvləri, o cümlədən Bakı Metropoliteninin əməkdaşları da bu prosesdə əllərindən gələni əsirgəməyəcəklər".

YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, bu gün müasir şəhərsalmanı metropolitensiz təsəvvür etmək mümkün deyil: "Sərnişin daşınmasında kütləviliyi ilə əvəzsiz rola malik, insanların sərbəst, sürətli və təhlükəsiz hərəkətini təmin edən, ekoloji cəhətdən ən zərərsiz olan nəqliyyat növü kimi Bakı Metropoliteni öz infrastrukturunu inkişaf etdirməklə, innovativ yenilikləri daim tətbiq etməklə çağdaş dövrün yeni tələblərinə uyğun xalqa xidmət etməkdədir. Böyük Zəfərimizin əbədiləşdirilməsi baxımından ən önəmli rəmzlərdən biri olan "8 Noyabr" metro stansiyası, düşünürəm ki, bütün şəhidlərimizin xatirəsini yaşadır. 30 şəhid ailəsi üzvünün, 350-yə yaxın müharibə iştirakçısının çalışdığı Bakı Metropoliteninin əməkdaşlarına bu xatirənin yaşadılmasına, doğma Bakımızın inkişafına verdikləri töhfələrə görə minnətdarlığımızı bildiririk. Fürsətdən istifadə edərək hər birinizi qarşıdan gələn Novruz və Ramazan bayramları münasibətilə təbrik edir, möhkəm cansağlığı, uzun ömür və Prezident İlham Əliyevin ətrafında sıx birləşərək daha güclü Azərbaycan naminə davam etdirdiyiniz şərəfli fəaliyyətinizdə yeni uğurlar arzulayıram".

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssisi, Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Əfqan Abdurahmanovun qızı Hilalə Əfqan Ulu Öndər Heydər Əliyevin xalqımıza miras qoyduğu, Vətənə bağlı əqidəli insanları sıralarında birləşdirən Yeni Azərbaycan Partiyasının üzvü olmaqdan böyük qürur duyduğunu söyləyib: "Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə dediyi "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" fikri bu gün də öz aktuallığını itirməyib. Məqsədimiz Ulu Öndərin əmanəti olan ölkəmizi qorumaq, onu hər zaman güclü görmək və bunun üçün çalışmaqdır".

Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsi zamanı misilsiz qəhrəmanlıq göstərən Azərbaycan gəncliyi bundan sonra elm, təhsil, mədəniyyət, idman, ictimai-siyasi və innovasiya sahələrində də ölkəmizi gələcəyə inamla daşımaq potensialına malikdir. "Qarşıda bizi böyük quruculuq işləri gözləyir. Amalımız ölkəmizin hər bir sahədə inkişafı, çiçəklənməsi naminə var qüvvəmizlə çalışmaq, Vətənə xidmət etməkdir" , - deyə H.Əfqan əlavə edib.

Çıxış edən "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin qatar maşinisti, Vətən müharibəsi iştirakçısı Səlim Rüstəmov isə deyib: "Tariximizin ən şanlı səhifələrinin yazıldığı 2020-ci ildə ərazi bütövlüyümüzün, sərhədlərimizin qorunması Vətən qarşısında əsas borcumuz olub. Cəmi 44 gün davam edən bir şanlı yürüşün iştirakçısı olmaq qürurvericidir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun xalqımıza bəxş etdiyi bu qürur, əminəm ki, əbədi olacaq. Çünki bu Vətən onun uğrunda canını qurban vermiş şəhidlərin ali məqamını həmişə uca tutaraq sabaha inamla addımlayacaqdır".

S.Rüstəmov təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Yeni Azərbaycan Partiyasının Azərbaycanın gələcəyi naminə əzmlə çalışdığını vurğulayaraq ümumxalq etimadı qazanmış nüfuzlu bir partiyanın üzvü olmaqdan böyük fəxarət duyduğunu söyləyib.

Sonra YAP sıralarına yeni qəbul olunan bir qrup şəxsə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonda xatirə şəkli çəkdirilib.

# Enerji qiymətlərinin yüksəlməsi davam edə bilər

Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, Yaxın Şərqdə baş verənlərin iqtisadi şok dalğaları o qədər genişdir ki, dünyanın hər bir guşəsinə təsirsiz keçə bilməz. Lakin məsələyə birtərəfli, sadəcə, neft və qaz üzərindən baxmaq da düzgün deyil, çünki neft və qaz yalnız yanacaq deyil, digər məqsədlər üçün də istifadə olunur. Bu iki mühüm resurs minlərlə gündəlik məhsul üçün xammaldır. "Qlobal qida təchizatının məhsuldarlığını artırmaq və qida istehsalının tələbatı ödəməsini təmin etmək üçün istifadə olunan gübrələr belə təbii qazdan alınır. Buna görə də neft və qida qiymətləri bir-biri ilə sıx bağlıdır. Enerji qiymətləri tarlalarda istifadə olunan gübrələrdən tutmuş mağaza rəflərinə qida daşıyan yük maşınlarına qədər qida təchizatı zəncirinin hər mərhələsinə təsir göstərir", - deyə deputat bildirib.



A.Badamov qeyd edib ki, iqtisadçılar qlobal iqtisadiyyat üçün iki fərqli ssenari irəli sürürlər. Bunlardan birincisi, Yaxın Şərq münaqişəsinin qısa zamanda başa çatması, neft və təbii qaz qiymətlərinin yay aylarına qədər normallaşması, artım və inflyasiyaya böyük ölçüdə zərər vurmamasıdır. İkinci ssenari isə odur ki, ərzaq və digər gündəlik xərclərdə uzunmüddətli enerji fasilələri özünü göstərə bilər. Pessimist ssenari müəllifləri iddia edirlər ki, neftin bir barelinin 100 dollara qədər yüksəlməsi və bu səviyyədə qalması ətraf mühitə də ciddi təsir göstərir. 2022-ci ildə başlayan Rusiya-Ukrayna müharibəsindən bəri ilk dəfə olaraq, neftin qiyməti bir barel üçün 100 dolları keçib.

Dünya neftinin təxminən 20 faizinin Körfəz bölgəsindən gəldiyini və onun böyük hissəsinin Hörmüz boğazından nəhəng tankerlərlə daşındığını diqqətə çatdıran A.Badamov deyib ki, boğazdan gündə 20 milyon bareldən çox neft daşınır ki, bu da qlobal neft istehlakının beşdəbirini təşkil edir: "ABŞ Enerji İnformasiya Administrasiyasının (EIA) məlumatına görə, dünya neft tədarükünün dörddəüçündən çoxu (gündə 79,8 milyon barel) dəniz yolu ilə daşınır. İran müharibəsi başlayandan bəri Hörmüz boğazından dəniz nəqliyyatı, demək olar ki, dayanıb. Gəmilərə hücumlar və naviqasiya avadanlıqlarına müdaxilə əksər operatorları gəmilərini keçid riskini ödəməkdənsə su yolunun kənarında lövbər salmağa məcbur edib. Neft axını olmasa, qlobal təchizat zəncirləri ciddi şəkildə pozulacaq. Məhdud təchizat və buna yüksək tələbat qiymətlərin artması ehtimalını yaradır ki, bu da istehlakçılara və müəssisələrə təzyiq göstərir. ABŞ Prezidenti Donald Trampın "Düşünürəm ki, müharibə demək olar ki, başa çatıb" deməsindən sonra qiymətlər qısa müddətə düşsə də, analitiklər xəbərdarlıq ediblər ki, müharibəni dayandırmaq üçün razılıq əldə edilməsə, qiymətlərin yüksəlməsi davam edə bilər. Hörmüz boğazından daşınan neftin təxminən 89 faizi Asiya bazarlarına gedir, Çin, Hindistan, Yaponiya və Cənubi Koreya əsas alıcılardır, bu da həmin ölkələrə ciddi təsir edir. Əgər nəqliyyat məhdudiyyətləri davam etsə, Körfəz ixracatçıları alternativ marşrutlar axtarmaq məcburiyyətində qalacaqlar. Bir neçə alternativ olsa da, bu yollara bir qədər şübhə ilə yanaşılır, çünki tutum baxımından onlar əsas marşruta yaxın belə gəlmirlər. Ona görə də alternativlər qismən əvəzedici rol oynayır, tam deyil".

Deputat vurğulayıb ki, Tramp administrasiyası enerji qiymətlərinin kəskin artmasının qarşısını almaq üçün Rusiya neftinə sanksiyaların yumşaldılması da daxil olmaqla bir sıra variantları nəzərdən keçirir.

"Azeri Light" markalı Azərbaycan neftinin qiymətinin yüksəlməkdə davam etdiyini deyən deputat vurğulayıb ki, bu qiymət dinamikası ölkənin enerji gəlirləri üçün əsas göstəricilərdən hesab olunur. Neftin qiymətinin qalxması dövlət büdcəsinə əlavə gəlirlərin formalaşmasına müsbət təsir göstərə bilər. Bununla belə, Azərbaycan regionda sabitliyin və təhlükəsizliyin bərqərar olmasında və dayanıqlı iqtisadiyyata əsaslanan inkişafda maraqlıdır.

***Əsmər QARDAŞXANOVA,***
*"Azərbaycan"*

GLOBAL BAKU FORUM

# XIII Qlobal Bakı Forumu

## Bakı forumunda qlobal böhranlar və çoxtərəfli əməkdaşlıq məsələləri gündəmdə olub

XIII Qlobal Bakı Forumu çərçivəsində "Böhran içində çoxtərəflilik: Qlobal əməkdaşlığa yenidən baxış" mövzusunda panel sessiya keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirə Birlik Təşkilatının (Commonwealth) sabiq baş katibi, Böyük Britaniya Lordlar Palatasının üzvü Patrisiya Skotland moderatorluq edib.







Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **Vayra Vike-Freyberqa** çoxtərəfliliyin ölkələrin qlobal və dünya əhəmiyyətli qərarlarda iştirak etmək imkanı olduğu diqqətə çatdırıb. "Burada həm böyük dövlətlər, həm də orta və kiçik ölkələr öz sözünü deyə bilirlər. Arzu edirik ki, hər bir xalqın hüquqları tapdalanmadan, öz gələcəyində söz sahibi olmaq şansı olsun. Avropada bu sahədə bir çox nailiyyətlər əldə edilib. Biz də bu hədəf üçün çalışmalı və onu qətiyyətlə gözləməliyik", - deyə o bildirib.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri **Hikmət Hacıyev** ölkəmiz üçün çoxtərəfliliyin böyük əhəmiyyətə malik olduğunu deyib. O, bunun yalnız müxtəlif qruplarda iştirakla məhdudlaşmadığını, həm də real fəaliyyətlərdə özünü göstərdiyini bildirib.

H.Hacıyev, eyni zamanda qeyd edib ki, Azərbaycan sülh və təhlükəsizlik sahəsində özünəməxsus model ortaya qoyub. "Biz uzunmüddətli münaqişəni hərbi və siyasi vasitələrin kombinasiyası ilə həll etdik və bunun nəticəsində hazırda regionda faktiki sülh mövcuddur. Həm Ermənistan, həm də Azərbaycan gələcək sülh gündəliyinin necə gücləndiriləcəyi ilə bağlı parametrlər üzərində işləyir", - deyə o əlavə edib.

Mərkəzi Asiya-Azərbaycan əməkdaşlığına diqqət çəkən Hikmət Hacıyev qeyd edib ki, Azərbaycan Mərkəzi Asiya üzrə keçirilən Məşvərət Görüşlərinin tamhüquqlu üzvü qəbul edilib. Bu da göstərir ki, biz ortaq baxışlara malik ölkələrik və "orta güc" konsepsiyasına inanırıq.

Slovakiyanın sabiq xarici işlər naziri **Yan Kubişin** sözlərinə görə, beynəlxalq ictimaiyyətin əksəriyyəti qaydalara, normalara və öhdəliklərə əsaslanan beynəlxalq nizam-intizamı qəbul edib. Yalnız bir neçə böyük güclər qəsdən qaydalara əsaslanan beynəlxalq nizamı pozur. Ona görə də biz bu psixoloji təzyiqin tələsinə düşməməliyik. O, beynəlxalq strukturlarla, institutlarla işləməyin önəmini vurğulayaraq, onlara daha çox legitimlik verilməsinin faydalı olacağına diqqət çəkib.



İndiki vəziyyətin çox çətin olduğunu vurğulayan Xorvatiyanın keçmiş Prezidenti **Kolinda Qrabar-Kitaroviç** beynəlxalq münasibətlərdə gücün mühüm rol oynadığını qeyd edib. "Qaydaları lazımi şəkildə tətbiq etmirik. Coğrafi və əhali baxımından kiçik və böyük dövlətlərin üzərinə qaydalara riayət etmək düşür. Odur ki, bizə çoxtərəflilik və ona xidmət edən təsisatlar lazımdır", - deyə o bildirib.

Ekvadorun sabiq xarici işlər naziri **Mariya Fernanda Espinosa** öz növbəsində deyib: "Biz elə bir dövrdəyik ki, çoxtərəflilik ciddi çətinliklərlə üzləşsə də, ona olan zərurət daha da artır. Çoxtərəflilik bizim ümumi amallar naminə necə əməkdaşlıq etdiyimizin göstəricisidir. Hazırda bu sahədə yaşanan böhran birbaşa siyasi iradə və liderliklə bağlıdır. Bizə qərəzsiz mövqeyi ilə seçilən, qətiyyətli liderlər lazımdır. Qarşımızda iqlim dəyişikliyi və bərabərsizlik kimi mühüm vəzifələr dayanır. Əgər bu problemləri həll etməsək, görülən bütün digər işlər nəticəsiz qalacaq".

Dünyada uzunmüddətli münaqişələrin və geosiyasi gərginliklərin davam etdiyini diqqətə çatdıran Seneqalın sabiq Prezidenti **Maki Sall** iqtisadiyyatın zəiflədiyini, iqlim dəyişikliyi, səhiyyə, təhsil və texnoloji inkişafla bağlı qlobal çağırışların getdikcə daha mürəkkəb xarakter aldığını söyləyib.

Avstriya Respublikasının sabiq xarici işlər naziri **Benita Ferrero-Valdner** Avropa İttifaqı və bir çox digər təşkilatda qərar qəbulunun vaxt apardığını qeyd edərək deyib: "Qruplar tərəfindən qoyulan məhdudiyyətlər aradan qaldırılmalı, dövlət-özəl tərəfdaşlığına və qeyri-dövlət aktorlarının iştirakına xüsusi diqqət yetirilməlidir".

## İlk panel iclası qlobal təhlükəsizlik və güclər balansı mövzusuna həsr edilib

"Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumu çərçivəsində "Qlobal təhlükəsizlik və güclər balansı: Beynəlxalq hüquqa hörmət - Yeni məsələlər, yeni çağırışlar" mövzusunda ilk panel iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, panel iclasa Belçikanın sabiq Baş naziri İv Leterm moderatorluq edib.






Tədbirdə çıxış edən Avropa İttifaqı Şurasının (Aİ) sabiq prezidenti **Şarl Mişel** Aİ-nin əsas prinsiplərinin - sülh, rifah və demokratik dəyərlərin hazırda müxtəlif təhdidlər altında olduğunu diqqətə çatdırıb.

Ərəb Liqasının sabiq baş katibi, Misirin sabiq xarici işlər naziri **Amr Musa** XXI əsrdə qlobal təhlükəsizliyin əvvəlki mənasının dəyişdiyini bildirib. "Biz məhz bu kontekstdə Qlobal Bakı Forumunda müzakirələr aparmaq üçün toplaşmışıq. Çünki Qlobal Şimal və Qlobal Cənub arasında sosial, iqtisadi və siyasi parçalanma dərinləşib. Qlobal Cənub ölkələri artıq çoxsaylı mürəkkəb çağırışlarla üzləşir, bu isə qlobal təhlükəsizlik məsələlərinin daha mürəkkəb, çoxşaxəli olmasına şərait yaradır", - deyə o əlavə edib.

Avstriyanın sabiq Federal Kansleri **Alfred Quzenbauer** düşmənçilikdən uzaqlaşmaq və beynəlxalq hüquq, normativlər və əməkdaşlıq prinsiplərinə əsaslanan həll yolları barədə düşünməyin vacibliyini vurğulayıb.

Avstriyanın digər keçmiş Federal Kansleri **Sebastian Kurs** isə bildirib ki, mövcud beynəlxalq nizam yenidən nəzərdən keçirilməli və gələcəkdə terrorizmə, hibrid müharibələrə və terror təşkilatlarına qarşı düzgün yanaşmanın necə olacağı bir daha düşünülməlidir.

Norveçin sabiq Baş naziri **Kyell Maqne Bondevik** dünyada hazırda beynəlxalq nizam yox, beynəlxalq xaos mövcud olduğunu deyib: "İkinci Dünya müharibəsindən sonra yaradılan beynəlxalq nizam, BMT və digər beynəlxalq təşkilatlar, İnsan Hüquqları Bəyannaməsi və digər konvensiyalar bu gün zəifləyib".

Panel sessiyası müzakirələrlə davam edib.

## BMT sistemində islahat və qlobal əməkdaşlıq mövzusu diqqət mərkəzində saxlanılıb

XIII Qlobal Bakı Forumu çərçivəsində keçirilən "BMT 80+" mövzusunda paneldə dünya siyasətçiləri və ekspertlər BMT sisteminin çağırışlara cavab verə bilməsi və effektivliyinin artırılması üçün aparılacaq islahatları müzakirə ediblər.

AZƏRTAC xəbər verir ki, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri **Binəli Yıldırım** bildirib ki, beynəlxalq vəziyyət əvvəlki dövrlərlə müqayisədə xeyli dəyişib və problemlər artıb. Onun sözlərinə görə, BMT-nin daimi üzvlərinə yönələn tənqidlər güclənir, çünki bəzi hallarda onlar bitərəf qalmaq əvəzinə, münaqişələrin tərəfinə çevrilirlər. Bu isə dünyada qarşıdurmaların artmasına səbəb olan amillərdən biridir. Binəli Yıldırım BMT-nin uzun illər uğurla fəaliyyət göstərdiyini, lakin son dövrdə əvvəlki effektivliyinin hiss olunmadığını və buna görə də təşkilatda əsaslı islahatların zəruri olduğunu vurğulayıb.






BMT-nin 62-ci Baş Assambleyasının Prezidenti olmuş Şimali Makedoniyanın keçmiş xarici işlər naziri **Srgjan Kerim** deyib ki, BMT sistemi müxtəlif agentliklər, proqramlar, ixtisaslaşmış orqanlar və katibliyin birləşməsindən ibarətdir. Onun sözlərinə görə, bu müxtəliflik zəiflik deyil, gücün əksidir, lakin effektiv koordinasiya olmadan təkrarçılıq və səmərəsizlik riski yaranır.

Türkiyənin Avropa İttifaqı işləri üzrə sabiq naziri **Volkan Bozkır** bildirib ki, BMT-nin tarixi təkamülü və Təhlükəsizlik Şurasındakı veto hüququ qlobal güclərin maraqları çərçivəsində formalaşıb. Aparıcı güclərin imtiyazlarını qorumağa meyilli olması səbəbindən yaxın gələcəkdə köklü islahatlar çətin görünür.

Slovakiyanın sabiq xarici işlər naziri **Miroslav Layçak** isə bildirib ki, əsas məsələ BMT-nin çağırışlara daha səmərəli cavab verməsi üçün gündəliyin düzgün müəyyən olunmasıdır. Layçak sülh və təhlükəsizlik, inkişaf və insan hüquqları sahələrində üzv dövlətlərin gələcək problemlərə diqqət yetirməsinin vacibliyini qeyd edib.

BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) baş katibinin müavini **Pedro Manuel Morenonun** fikrincə, BMT sistemində islahatlar yalnız texniki deyil, strateji zərurətdir. Belə ki, təşkilatın effektivliyini artırmaq üçün mandatların və strukturun yenidən qiymətləndirilməsi vacibdir. Moreno əlavə edib ki, resurslar azalıb və 2030-cu ilə qədər resursların 2024-cü ilə nisbətən 35 faiz azalacağı gözlənilir.

Beynəlxalq Telekommunikasiya İttifaqının (ITU) baş katibinin müavini **Tomas Lamanauskas** isə BMT sistemində süni intellekt (AI) sahəsində qlobal əməkdaşlıq və vahid yanaşmanın təmin edilməsinin təşkilatın effektivliyi üçün əsas olduğunu bildirib.

# Milli Məclisin komitələrinin birgə iclası olub

Martın 12-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin İnsan hüquqları komitəsi ilə birgə videokonfrans formatında iclası keçirilib. İclasda 4 məsələ müzakirə edilib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli əvvəlcə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib.

O, rəqəmsal texnologiyaların sürətli inkişafının və süni intellekt texnologiyalarının müxtəlif sahələrdə geniş tətbiqinin informasiya mühitinin transformasiyasına, yeni innovativ imkanların yaranmasına şərait yaratdığını, bununla yanaşı, qeyd olunan texnologiyaların imkanlarından qanunsuz və zərərli məqsədlərlə istifadə hallarının artdığını söyləyib. O bildirib ki, bu cür hallar şəxsi həyatın toxunulmazlığına müdaxilə, habelə ictimai rəyin manipulyasiyası və cəmiyyətdə çaşqınlıq yaranması baxımından həmin sahədə müvafiq hüquqi mexanizmlərin formalaşdırılmasını zəruri edir. Qeyd edilib ki, təqdim olunan layihə süni intellekt texnologiyalarından istifadə edilməklə reallığı əks etdirməyən foto, video və audio materialların hazırlanması və yayılması ilə bağlı hüquqi çərçivənin formalaşdırılması məqsədi daşıyır. Həmin halların qarşısının alınması məqsədilə qanunda müvafiq hüquqi məsuliyyət mexanizmlərinin müəyyən edilməsi nəzərdə tutulur.

Layihədə Cinayət Məcəlləsinə yeni 148-2 və 242-1-ci maddələrin əlavə edilməsi təklif olunur. Həmin maddələrə əsasən, şəxsin razılığı olmadan onun görüntüsündən və ya səsindən istifadə etməklə süni intellekt texnologiyaları vasitəsilə reallığı əks etdirməyən foto, video və ya audio materialların hazırlanması və yayılması, habelə pornoqrafik və ya seksual məzmunlu materialların hazırlanması və yayılması cinayət məsuliyyəti yaradır. Bununla yanaşı, Cinayət-Prosessual Məcəlləsinin 37.3-cü maddəsinə müvafiq dəyişiklik edilərək Cinayət Məcəlləsinin 148-2.1-ci maddəsi üzrə cinayət təqibinin həyata keçirilməsi ilə bağlı prosessual norma müəyyən edilir. Eyni zamanda "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" qanunlara edilən dəyişikliklərlə süni intellekt texnologiyalarından istifadə edilməklə hazırlanmış materialların yayılması ilə bağlı əlavə hüquqi tələblər və məhdudiyyətlər müəyyən olunur.

İclasda çıxış edən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc müasir zamanda geniş tətbiq edilən süni intellekt texnologiyalarının müsbət tərəfləri və törətdiyi fəsadlar barədə fikirlərini açıqlayıb. O, sənəddə təklif olunan dəyişikliklərin mühüm əhəmiyyət kəsb etdiyini söyləyərək qanun layihəsinin milli, rəqəmsal təhlükəsizliyimizin, texnoloji suverenliyimizin qorunmasına xidmət etdiyini vurğulayıb.

Sonra iclasda Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verilib. Qeyd olunub ki, layihədə təklif olunan dəyişikliklərin əsas məqsədi dövlət vəsaitlərindən istifadə ilə bağlı məsuliyyət mexanizminin təkmilləşdirilməsi, sanksiyaların fərdiləşdirilməsi və hüquqi tənzimləmənin dəqiqləşdirilməsidir.

Qanun layihəsinə əsasən, Cinayət Məcəlləsinin 308-1-ci maddəsində cinayətin predmeti olan vəsaitin əhatə dairəsi genişləndirilərək, dövlətə məxsus olan hüquqi şəxslərin vəsaiti də maddənin təsir dairəsinə salınır. Maddənin hazırda qüvvədə olan sanksiyasında cərimənin məbləği konkret aralıqda nəzərdə tutulduğu halda, layihəyə əsasən cərimə "cinayətin predmetinin dəyərinin (təyinatından kənar istifadə olunan vəsaitin) yüz faizi miqdarında" müəyyən edilir. Bu dəyişikliklə cərimənin miqdarı birbaşa vurulan zərərlə əlaqələndirilir.

Daha sonra onlayn iclasda Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə (birinci oxunuş) baxılıb. Diqqətə çatdırıb ki, layihəyə əsasən, "İCMAL" informasiya sistemi "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin tərkibində "İnzibati cərimələrin mərkəzi avtomatlaşdırılmış lövhəsi" altsistemi, yəni "İCMAL" altsistemi kimi yenidən təşkil edilir və buna uyğun olaraq Məcəllənin müvafiq maddələrində dəyişikliklər edilir.

Bununla yanaşı, İnzibati Xətalar Məcəlləsinə əlavə edilməsi nəzərdə tutulan "Uşaqda zorakılıq hərəkətlərinin əlamətlərinin aşkar edilməsi barədə məlumatın verilməməsi" adlı 189-4-cü, "Uşaqlara, o cümlədən uşaqların bir-birinə qarşı davamlı təzyiq və aqressiv davranışının qarşısının alınmaması" adlı 189-5-ci və "Uşağa qarşı cismani cəzanın tətbiqi" adlı 525-1-ci maddələrdə "Uşaq hüquqları haqqında" qanunun tətbiqi ilə bağlı inzibati məsuliyyət məsələləri öz əksini tapıb.

Məcəllənin 410-cu maddəsindəki dəyişikliklərin əsas məqsədi isə dövlət vəsaitlərindən istifadə ilə bağlı məsuliyyət mexanizminin təkmilləşdirilməsi, sanksiyaların fərdiləşdirilməsi və hüquqi tənzimləmənin dəqiqləşdirilməsidir. Dəyişikliyə əsasən, "dövlətə məxsus olan hüquqi şəxslər" maliyyə-təsərrüfat fəaliyyətində maliyyə qaydalarının pozulmasına görə məsuliyyət daşıyan subyektlər sırasına əlavə edilir və bütün hallarda cərimə "inzibati xətanın bilavasitə obyekti olmuş vəsaitin yüz faizi məbləğində" müəyyən ediləcək.

Sənəddə nəzərdə tutulan digər dəyişiklik dilənçiliklə məşğulolma əməlinin artıq avaralıq hesab edilməməsi və Məcəlləyə ayrıca "Dilənçiliklə məşğul olma" adlı 523-1-ci maddənin əlavə edilməsindən ibarətdir.

İclasda habelə "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi təqdim edilib. Bildirilib ki, qanunun 27-ci, 30-cu, 35-ci maddələrinə təklif olunan dəyişiklik İnzibati Xətalar Məcəlləsinin 57.6.3-cü maddəsində nəzərdə tutulan dəyişikliklərlə əlaqədardır və həmin maddədə müəyyən edilmiş qaydada tənzimlənməni ehtiva edir. Həmçinin layihədə sənədlərin elektron tərtib edilməsi ilə əlaqədar müvafiq dəyişikliyin də edilməsi təklif edilir.

Onlayn iclasda təqdim olunan məsələlərlə bağlı aparılan geniş fikir mübadiləsi zamanı parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Elşən Musayev, deputatlar Azay Quliyev, Hikmət Məmmədov, Razi Nurullayev, Azər Allahverənov, Vüqar Rəhimzadə, Elman Nəsirov, Mübariz Qurbanlı, Əminə Ağazadə, Erkin Qədirli, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəis müavini Allahverən İsmayılov, DİN-in Bakı şəhər Baş Polis İdarəsinin rəis müavini Vüqar Ələkbərov, DİN-in Baş İstintaq və Təhqiqat İdarəsi rəisinin müavini Yasin Mikayıllı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova, DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin şöbə rəisinin müavini İmran Əliyev çıxış edərək öz fikirlərini, qeyd və təkliflərini səsləndiriblər.

İclasda müzakirəyə çıxarılan qanun layihələrinin hər biri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# AHİK nümayəndə heyəti Cenevrədə BƏT rəsmiləri ilə görüşlər keçirib

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) nümayəndə heyəti İsveçrənin Cenevrə şəhərində Beynəlxalq Əmək Təşkilatının (BƏT) İşçilərin fəaliyyəti üzrə bürosunun (ACTRAV) yeni təyin olunmuş direktoru Oliver Röpke və BƏT-in Avropa və Mərkəzi Asiya üzrə regional direktor müavini Emanuele Julien ilə görüşlər keçirib.**







Görüşlər zamanı konfederasiya sədri Sahib Məmmədov ölkəmizdə əmək hüquqlarının müdafiəsinin Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin prioritet istiqamətlərindən biri olduğunu deyib, həmkarlar ittifaqlarının bu istiqamətdə fəaliyyətindən bəhs edib.

AHİK ilə BƏT arasında formalaşmış qarşılıqlı faydalı əməkdaşlıqdan, bu əməkdaşlığın praktik və nəticəyönümlü xarakter daşıdığından söz açan konfederasiya sədri BƏT-in işçi hüquqları ilə bağlı 10-u fundamental olmaqla 60 konvensiyasının Azərbaycan tərəfindən ratifikasiya edildiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, cari ilin fevral ayında Azərbaycanda BƏT-in "Əməyin Təhlükəsizliyi və Gigiyenasının Təşviq Edilməsinin Əsasları haqqında" 187 nömrəli Konvensiyasının təsdiq edilməsi ölkəmizdə beynəlxalq əmək standartlarına verilən diqqətin bariz nümunəsidir. Vurğulanıb ki, konvensiyadan irəli gələn öhdəliklərin icrası istehsalat xəsarətlərinin azalmasına və insan kapitalının qorunmasına mühüm töhfə verəcək.

Görüşlərdə həmçinin "2025-2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı"nın icrasından, BƏT ACTRAV-la əməkdaşlığın genişləndirilməsindən danışılıb, Azərbaycan həmkarlar ittifaqları sistemində aparılan islahatlar və tətbiq olunan yeniliklər barədə ətraflı məlumat verilib.

BƏT nümayəndələri AHİK ilə əməkdaşlığın səviyyəsindən məmnunluqlarını ifadə edib, əməyin mühafizəsi, layiqli əmək şəraitinin yaradılması, ittifaq üzvlərinin maarifləndirilməsi və bacarıqlarının artırılması istiqamətində həyata keçirilən birgə layihələrin əhəmiyyətini qeyd ediblər.

Həmçinin Azərbaycanda həyata keçirilən sosial siyasət, əmək münasibətlərinin tənzimlənməsi mexanizmləri və sosial tərəfdaşlığın inkişafı yüksək qiymətləndirilib, həmkarlar ittifaqları sistemində aparılan islahatlar müsbət dəyərləndirilib.

Görüşlərdə əməkdaşlığın perspektivləri də müzakirə olunub, qarşılıqlı fikir mübadiləsi aparılıb.

***Nərminə ƏSGƏROVA, "Azərbaycan"***

# Dünyanı narahat edən məsələlər Bakıda müzakirə olunur

Martın 12-dən paytaxtımız XIII Qlobal Bakı Forumuna evsahibliyi edir. Budəfəki forumun mövzusu "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması"dır.




Qlobal Bakı Forumu beynəlxalq gündəlikdə olan əsas məsələlərin müzakirəsi üçün mükəmməl bir platformadır. Bu tədbirin təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi dünyada mövcud olan qlobal problemlərin həlli yollarını araşdıran və bu mövzuda beynəlxalq ictimaiyyəti məlumatlandıran əhəmiyyətli təsisata çevrilib. Məhz buna görə də mərkəzin təşkil etdiyi tədbirlərə maraq hər il daha da artır.

Forumun builki mövzusu da çox aktualdır. Çünki hazırda dünya mühüm və mürəkkəb dəyişikliklər dövrünü yaşayır. Soyuq müharibədən sonra formalaşmış təkqütblü dünya sistemi tədricən zəifləyir və onun yerində yeni, çoxqütblü beynəlxalq nizam yaranmağa başlayır. Bu proses isə beynəlxalq münasibətlərdə müxtəlif gərginliklər və fikir ayrılıqları yaradır. Fərqli geosiyasi güclərin məsələlərə müxtəlif yanaşması qlobal idarəetmə mexanizmlərinin fəaliyyətini çətinləşdirir. Mübahisələrin sülh yolu ilə həlli üçün ortaq və təsirli platformaların az olması isə dünyada yeni qarşıdurma risklərini artırır. Dövlətlər arasında etimadın azalması həm siyasi dialoqa, həm də iqtisadi əməkdaşlığa mənfi təsir göstərir. Belə bir şəraitdə beynəlxalq dialoq və qarşılıqlı anlaşma xüsusilə vacib əhəmiyyət daşıyır. Məhz bu baxımdan Qlobal Bakı Forumu kimi beynəlxalq platformalar böyük rol oynayırlar. Belə tədbirlər rəsmi diplomatiyanın bəzən həll edə bilmədiyi məsələlərin daha açıq və çevik müzakirəsinə imkan yaradır.

Dünən XIII Qlobal Bakı Forumunun açılış mərasimi keçirildi. Prezident İlham Əliyev forumun açılış mərasimində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünyanın müxtəlif ölkələrində tədbirlər keçirməsini təşkilatın artan nüfuzunun göstəricisi kimi dəyərləndirdi: "Nizami Gəncəvi Beynəlxalq Mərkəzi bu gün aparıcı beynəlxalq təsisatlardan biridir və burada bir çox məsələlər müzakirə olunur. Təşkilat yaxşı beynəlxalq nüfuza malikdir. Sistemli yanaşmaların, dəyişən beynəlxalq vəziyyətə aid olan məsələlərə mövqeyin formalaşmasında bu təşkilatın böyük rolu var". Bu fikirlər həm forumun əhəmiyyətini, həm də bu tədbirin beynəlxalq münasibətlər sistemində tutduğu yeri aydın şəkildə ifadə edir.

Dövlətimizin başçısının açılış mərasimindəki nitqində təhlükəsizlik məsələsinə xüsusi diqqət yetirməsi də təsadüfi deyil. Müasir dünyada təhlükəsizlik amili dövlətlərin siyasətində əsas prioritetlərdən biri hesab olunur. Azərbaycan da mürəkkəb geosiyasi bölgədə yerləşdiyi üçün bu məsələyə həmişə xüsusi həssaslıqla yanaşır. Bu baxımdan beynəlxalq forumların keçirilməsi və müxtəlif ölkələr arasında dialoqun təşviqi regionda sabitliyin qorunmasına müsbət təsir göstərir. "Təhlükəsizlik məsələsi Azərbaycan üçün hər zaman birmənalı olaraq birnömrəli məsələ olub. Eyni zamanda forumun əsas məqsədlərindən biri də dini, mədəni və etnik zəmində yaranan qarşıdurmaların azaldılmasına töhfə verməkdir. Azərbaycan isə belə mühüm tədbirlərə evsahibliyi etməklə fərqli maraqlara malik tərəfləri dialoq masası ətrafında toplamağa çalışır. Bu isə ölkəmizin sülhün, əməkdaşlığın və sabitliyin möhkəmlənməsinə verdiyi real töhfənin göstəricisidir", - deyə Prezident İlham Əliyev diqqətə çatdırıb.

Göründüyü kimi, forumun dini, mədəni və etnik zəmində yaranan qarşıdurmaların azaldılmasına xidmət etməsi mühüm əhəmiyyət daşıyır. Müxtəlif mədəniyyətlərin nümayəndələrinin eyni platformada fikir mübadiləsi aparması qarşılıqlı anlaşmanı gücləndirir və münaqişələrin sülh yolu ilə həlli üçün əlverişli şərait yaradır. Bu isə qloballaşan dünyada dialoq və tolerantlığın vacibliyini bir daha ön plana çıxarır.

Azərbaycan dünyada sabit və təhlükəsiz ölkələrdən biri kimi tanınır. Ölkəmizdə siyasi və ictimai sabitlik qorunur, iqtisadiyyat inkişaf edir və insanların sosial rifahı ildən-ilə yaxşılaşır. Azərbaycanın uğurlu xarici siyasəti ölkənin beynəlxalq nüfuzunun artmasına mühüm təsir göstərir. Bu gün Azərbaycan müxtəlif ölkələr və mədəniyyətlər arasında dialoq və əməkdaşlıq üçün vacib bir məkan kimi qəbul olunur. Forumun Bakıda keçirilməsi isə Azərbaycanın bu sahədəki rolunu və beynəlxalq səviyyədə artan əhəmiyyətini bir daha təsdiqləyir.

Xatırladaq ki, "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusuna həsr olunan XIII Qlobal Bakı Forumunda dünyanın fərqli regionlarından nüfuzlu siyasi xadimlər, beynəlxalq təşkilatların nümayəndələri, o cümlədən sabiq dövlət və hökumət başçıları, alimlər və ekspertlər iştirak edirlər. Azərbaycanın belə forumlara evsahibliyi və iştirakçıların sayının ildən-ilə çoxalması ölkəmizə olan diqqətin və etimadın artdığını göstərir, həmçinin Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə verilən dəstəyin ifadəsi kimi dəyərləndirilir.

***Təhminə VERDİYEVA, "Azərbaycan"***

# Rusiya səfiri İrana humanitar yardımın tranzitinə görə Azərbaycana təşəkkür edib

Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov İran İslam Respublikasına humanitar yardımın tranzitinə görə Azərbaycana təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, bu barədə səfir Lənkəran Beynəlxalq Hava Limanında jurnalistlərə açıqlamasında bildirib. O xatırladıb ki, bir neçə gün əvvəl Rusiya və İran prezidentləri arasında telefon danışığı olub. Bu danışıqdan sonra Rusiya Prezidenti Vladimir Putin İran tərəfinin xahişi ilə ölkəyə tibbi ləvazimatlar çatdırmağı tapşırıb. Səfir qeyd edib ki, tibbi ləvazimatlardan ibarət humanitar yükün Azərbaycan ərazisindən tranziti ilə bağlı Rusiyanın müraciətinə əsasən, Prezident İlham Əliyev tərəfindən müvafiq qərar qəbul edilib. "Azərbaycan tərəfinə çox təşəkkür edirəm. Hər şeyin necə gözəl təşkil olunduğunu görürsünüz", - deyə o əlavə edib.




# *Şarl MİŞEL:* "Bakı qlobal dialoq və əməkdaşlıq üçün mühüm platformaya çevrilib"

"Bakı forumu dünyanın müxtəlif ölkələrindən olan təcrübəli siyasətçi və ekspertlərin bir masa ətrafında toplaşaraq fikir mübadiləsi aparması, bir-birilərini daha yaxşı anlamağa çalışması üçün mühüm platformadır. Belə tədbirlər yeni ideyaların formalaşmasına, daha çox sabitlik, təhlükəsizlik və rifahın təmin olunmasına töhfə verə bilər".




Bu barədə AZƏRTAC-a açıqlamasında Avropa İttifaqı Şurasının sabiq prezidenti Şarl Mişel bildirib.

O deyib ki, Azərbaycan regionda, xüsusilə Qafqaz və Mərkəzi Asiya ilə əlaqələrin inkişafında mühüm rol oynayır. Ölkənin beynəlxalq tədbirlərə evsahibliyi etməsi qlobal əməkdaşlığın genişlənməsinə və müxtəlif regionlar arasında əlaqələrin möhkəmlənməsinə xidmət edir.

Şarl Mişel Bakıya dəfələrlə səfər etdiyini xatırladaraq qeyd edib ki, Azərbaycan beynəlxalq tədbirlər üçün mühüm məkanlardan birinə çevrilib. Bu cür platformalar vasitəsilə ölkə həm qonaqpərvərliyini nümayiş etdirir, həm də dünya ilə daha sıx əlaqələr qurur. O həmçinin vurğulayıb ki, Azərbaycan bu il BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasına evsahibliyi etməklə davamlı şəhər inkişafı və beynəlxalq əməkdaşlıq sahəsində yeni imkanların yaradılmasına töhfə verə bilər: "Bu cür tədbirlər ölkələr arasında təcrübə mübadiləsini gücləndirir və qlobal problemlərin birgə müzakirəsi üçün vacib imkan yaradır".



# Aİ Şurasının prezidenti Avropanın "yaşıl şirkət"lərinə çağırış etdi

## Azərbaycanın bərpaolunan enerji sektoruna sərmayə qoymaqdan çəkinməyin

Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rolu olan ölkələrdəndir. Qoca qitənin xüsusilə qaza ehtiyacı var və bu baxımdan ölkəmiz etibarlı mavi yanacaq təchizatçısı kimi çıxış edir. Təsadüfi deyil ki, Azərbaycan Pan-Avropa qaz təchizatçısı imicini qazanıb.

Azərbaycan-Avropa enerji əməkdaşlığı xüsusilə 2022-ci ildə imzalanan Strateji Tərəfdaşlıq Memorandumu ilə zirvəyə çatdı. Belə ki, həmin il iyulun 18-də Bakıda Prezident İlham Əliyev və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen tərəfindən "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalandı. Bu memoranduma əsasən, Azərbaycanın Avropaya qaz tədarükünün 2027-ci ilə qədər ən azı 20 milyard kubmetrə çatdırılması hədəfləndi. Bununla Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş kimi mövqeyi daha da gücləndi.

Təsadüfi deyil ki, cari il martın 11-də Prezident İlham Əliyevin Bakıda səfərdə olan Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Antonio Koşta ilə söhbətlərində və hər ikisinin mətbuata bəyanatlarında bunlar bir daha vurğulanıb. Dövlətimizin başçısı tərəfdaşlığın mühüm hissəsinin hər zaman enerji sahəsində olduğunu və birmənalı şəkildə bundan sonra da belə olacağını qeyd edərək deyib: "Bu, xüsusən də 2022-ci ildə Enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında sənədi Avropa Komissiyası ilə imzaladığımızdan sonra müşahidə olunur. Həmin vaxtdan etibarən biz həm həcm, həm də ölkələrin sayı baxımından Avropa ölkələrinə qaz ixracımızı artırmışıq. Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycandan qazı qəbul edir və ölkələrin ümumi sayı 16-ya çatıb. Bu göstəriciyə görə, biz dünyada boru kəməri ilə qazı təchiz edən birnömrəli ölkəyik. On altı ölkə bu gün Azərbaycan qazını alır və beləliklə, bir çox ölkələrin enerji təhlükəsizliyində oynadığımız rol artır".

Prezidentimiz o faktı da nəzərə çatdırıb ki, bizim üçün Avropa bazarı artım potensialına malik ümumi qaz ixracımızın yarısını təşkil edir: "Elə bu ayın əvvəlində, biz "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının illik toplantısını keçirdik və bu tədbirə Azərbaycan və Avropa Komissiyası evsahibliyi edir. Orada öz nitqimdə mən auditoriyanı məlumatlandırdım ki, biz bu il qaz hasilatını artırmağı planlaşdırırıq. Biz qazı yeni yataqda hasil etməyə başlayacağıq. Bu gündən etibarən növbəti iki və ya üç il ərzində, - əgər hər şey cədvələ uyğun gedərsə, - bizim bugünkü həcmlə müqayisədə minimum 10 milyard kubmetr əlavə qazımız olacaq".

Azərbaycanın qaz ixrac etdiyi 16 ölkənin adlarını bir daha xatırladaq: Gürcüstan, Türkiyə, İtaliya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya. Bu, əlbəttə, son hədd deyil.

Avropa İttifaqi ilə enerji əməkdaşlığının digər bir istiqaməti isə bərpaolunan enerji ilə bağlıdır. Aİ ilə 2022-ci ildə imzalanmış memoranduma əsasən, əməkdaşlıq yalnız qazla məhdudlaşmayıb, həmçinin bərpaolunan enerji və "yaşıl enerji" kabel layihələrini də strateji gündəmə daxil edib.

Yaxın illərdə gerçəkliyə çevriləcək "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsi hazırda dünyanın diqqət mərkəzindədir. Belə ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Bu sazişə əsasən yaradılan, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanı birləşdirən "yaşıl enerji dəhlizi" sözügedən dörd ölkənin təmiz və təhlükəsiz enerjinin ötürülməsi üzrə ortaq strateji baxışına əsaslanır. Ümumi uzunluğu 3 min kilometr olan dəhliz vasitəsilə "yaşıl enerji" Qara dənizin dibi ilə Avropaya ötürüləcək. Bu kabel vasitəsilə ildə təxminən 4 giqavat gücündə "yaşıl enerji"nin Avropaya nəqli planlaşdırılır.

Buna Azərbaycanın "yaşıl enerji" potensialı imkan verir. Odur ki, bu sahədə layihələr həyata keçirilir: "Külək, günəş və su-elektrik enerjisinə böyük sərmayələr yatırırıq. Planımız beş və ya altı il ərzində ixraca hazır olan 6-8 giqavatlıq bərpaolunan enerjiyə malik olmaqdır. Bir sözlə, hazırda biz Avropa tərəfdaşları ilə ötürülmə xətləri, dəniz dibi kabelləri, enerji infrastrukturunun digər fərqli hissələri üzərində çalışırıq. Bu gün gəldiyiniz zaman hər ikimiz Bakıda çox günəşli havanı qeyd etdik. Bahar gəlir. Əslində, düşünürəm ki, bizim burada 300-dən çox günəşli günümüz olur və ola bilsin, küləkli günlər daha çoxdur. Təsəvvür edə bilərsiniz ki, külək və günəş enerjisinin burada böyük potensialı var. Əlbəttə, biz daha sıx işləməyə çalışırıq, çünki Avropa qitəsinə daxil olmazdan əvvəl, siz bütün tranzit razılaşmaların icrası məqsədilə bir çox ölkələrlə işləməlisiniz", - deyə Prezidentimiz bildirib.

Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta bütün deyilən istiqamətlər üzrə ölkəmizdə gedən işlərdən məmnunluğunu ifadə edib: "Prezident Əliyevin söylədiyi kimi, enerji təhlükəsizliyi ikitərəfli əməkdaşlığımızın təməlini təşkil edir. Dörd il bundan əvvəl Versalda Avropa İttifaqı Şurası qaz, neft və kömürün təchizatı mənbələrinin şaxələndirilməsinə dair qərar qəbul etdi. Azərbaycan "Cənub qaz dəhlizi" sayəsində bu səylərdə həlledici rol oynadı. Bu gün nəticə göz qabağındadır. İrandakı müharibənin qlobal enerji bazarlarını sarsıtdığı bir vaxtda bizim enerji sahəsində hazırkı tərəfdaşlığımız heç zaman olmadığı kimi daha əhəmiyyətlidir".

A.Koşta Avropa İttifaqının Azərbaycanın enerji keçidini dəstəkləmək üçün özəl investisiyaları və maliyyələşməni səfərbər etməyə hazır olduğunu bildirib. O, həmçinin Avropanın təmiz texnologiyalar sahəsində fəaliyyət göstərən şirkətlərini ölkəmizin geniş planlarında daha fəal iştirak etməyə çağırıb.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Neft bazarının gələcək dinamikası Yaxın Şərqdəki hadisələrin gedişatından asılıdır

"Regionda baş verən gərgin hadisələr dünya enerji bazarına ciddi təsir göstərir. Xüsusilə Yaxın Şərqdə artan siyasi və hərbi gərginlik neftin qiymətinin yüksəlməsinə səbəb olub".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. O qeyd edib ki, dünya üzrə gündəlik istehsal olunan neftin həcmi təxminən 100 milyon barel təşkil edir və bunun mühüm hissəsi məhz Yaxın Şərq regionu ilə bağlıdır. Buna görə də bölgədə baş verən hər hansı risk və ya münaqişə bazarda qiymətlərin dərhal artmasına səbəb olur.

Deputat bildirib ki, hazırda dünya bazarında əsas göstərici sayılan "Brent" markalı neftin qiyməti 90-100 dollar civarında dəyişir: "Analitiklərin fikrincə, gərginlik davam edərsə, qiymətlərin daha da yüksəlməsi ehtimalı var. Azərbaycanın ixrac etdiyi əsas neft markası olan "Azeri Light" adətən dünya bazar qiymətlərinə uyğun satılır və bəzi hallarda "Brent"dən bir neçə dollar baha olur. Bu isə Azərbaycanın neft ixracından əldə etdiyi gəlirlərin artmasına müsbət təsir göstərir", - deyə o qeyd edib.



A.Hüseynov vurğulayıb ki, Azərbaycanın dövlət büdcəsi hesablanarkən neftin qiyməti daha ehtiyatla proqnozlaşdırılır: "Son illərdə büdcə hesablamalarında bir barel neftin qiyməti təxminən 60-65 dollar səviyyəsində nəzərdə tutulur. Buna görə də bazarda qiymət daha yüksək olduğu təqdirdə dövlət büdcəsinə əlavə gəlirlər daxil olur. Hesablamalara görə, neftin qiymətinin 10 dollar artması Azərbaycanın ixrac gəlirlərini təxminən 2-3 milyard dollar artıracaq. Ekspertlərin fikrincə, qiymətlərin artmasının nə qədər davam edəcəyi əsasən regiondakı vəziyyətdən asılıdır. Əgər gərginlik azalsa, neftin qiyməti yenidən 75-85 dollara enə bilər. Lakin risklər davam edərsə, qiymətlərin 100 dollar və daha yüksək səviyyədə qalması mümkündür".

Deputat qeyd edib ki, ümumilikdə, hazırkı bahalaşma əsasən geosiyasi risklərlə bağlıdır və bazarın gələcək dinamikası regionda baş verən hadisələrin inkişafından asılı olacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Yaxın Şərqdəki hərbi münaqişə fonunda Azərbaycan və Türkiyənin bölgədə artan rolu

"Yaxın Şərqdə son dövrlərdə baş verən hərbi-siyasi gərginliklər regionda təhlükəsizlik mühitini və geosiyasi balansı ciddi şəkildə dəyişdirməkdədir. Bölgədə müxtəlif güclər arasında artan rəqabət həm enerji təhlükəsizliyi, həm də nəqliyyat marşrutlarının gələcəyi baxımından yeni reallıqlar formalaşdırır".

Bunu AZƏRTAC-a açıqlamasında Kocaeli Heydər Əliyev Mədəniyyət Mərkəzinin sədri, siyasi ekspert Bilal Dündar bildirib.

Onun sözlərinə görə, Yaxın Şərq tarixən böyük güclərin maraq dairəsində olan strateji bölgələrdən biridir. Lakin son illərdə enerji resursları, beynəlxalq ticarət yolları və təhlükəsizlik məsələləri ətrafında yaranan yeni geosiyasi reallıqlar bu regionun əhəmiyyətini daha da artırıb.

"Bu baxımdan Türkiyə və Azərbaycanın regiondakı rolu getdikcə daha çox diqqət mərkəzinə çevrilir. Türkiyə həm coğrafi mövqeyi, həm də siyasi və hərbi potensialı ilə Yaxın Şərqdə əsas aktorlardan biri hesab olunur. NATO üzvü olan Türkiyə eyni zamanda region ölkələri ilə tarixi, mədəni və iqtisadi əlaqələrə malikdir. Ankara son illərdə apardığı çoxşaxəli xarici siyasət sayəsində həm diplomatik platformalarda, həm də regional təhlükəsizlik məsələlərində mühüm rol oynayır. Türkiyənin müdafiə sənayesində əldə etdiyi texnoloji nailiyyətlər və artan hərbi potensialı onun regional təsir imkanlarını daha da gücləndirib.

Azərbaycan da son illərdə regionda strateji əhəmiyyətə malik dövlətlərdən birinə çevrilib. "Cənubi Qafqazın əsas siyasi və iqtisadi aktorlarından biri olan Azərbaycan enerji və nəqliyyat layihələri vasitəsilə Avropa ilə Asiya arasında mühüm körpü rolunu oynayır. Xüsusilə enerji təhlükəsizliyi məsələlərinin qlobal gündəmdə ön plana çıxdığı bir dövrdə Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyi daha da möhkəmlənib. Azərbaycanın həyata keçirdiyi beynəlxalq enerji layihələri Avropa bazarlarının şaxələndirilməsində mühüm rol oynayır. Eyni zamanda ölkənin tranzit imkanları və logistika potensialı regionun iqtisadi inteqrasiyasına ciddi töhfə verir. Bu baxımdan Bakı yalnız enerji ixrac edən ölkə deyil, həm də Avrasiya məkanında mühüm nəqliyyat qovşağı kimi çıxış edir", - deyə o vurğulayıb.

Bilal Dündar bildirib ki, enerji və nəqliyyat marşrutlarının təhlükəsizliyi məsələsi Yaxın Şərqdəki münaqişələr fonunda daha da aktuallaşıb. Bu baxımdan Türkiyə və Azərbaycanın koordinasiyalı fəaliyyəti Avropa ilə Asiya arasında alternativ və təhlükəsiz ticarət yollarının formalaşmasına mühüm töhfə verir. Regionda yaranan yeni geosiyasi şərait Bakı və Ankaranın bu sahədəki rolunu daha da artırır: "Bu kontekstdə Azərbaycanın enerji siyasəti və Türkiyənin tranzit imkanları Avropa və digər regionlar üçün strateji əhəmiyyət daşıyır. Türkiyə və Azərbaycanın ortaq siyasi iradəsi regionda sabitliyin qorunmasına yönəlmiş balanslı və praqmatik siyasətin formalaşmasına imkan yaradır. Bu yanaşma yalnız siyasi və təhlükəsizlik məsələlərində deyil, həm də iqtisadi əməkdaşlıq və regional inkişaf baxımından mühüm nəticələr doğurur".

Bilal Dündar qeyd edib ki, qlobal geosiyasi proseslərin sürətlə dəyişdiyi indiki mərhələdə Türkiyə və Azərbaycanın strateji tərəfdaşlığı regionda sülhün, sabitliyin və əməkdaşlığın möhkəmlənməsində mühüm rol oynamağa davam edəcək. Onun sözlərinə görə, iki qardaş ölkənin birgə fəaliyyəti yalnız region üçün deyil, bütövlükdə Avrasiya məkanında yeni təhlükəsizlik və əməkdaşlıq modelinin formalaşmasına da mühüm töhfə verir.

# Azərbaycan-Avropa İttifaqı: iqtisadi əməkdaşlığın yeni mərhələsi

Azərbaycan və Avropa İttifaqı (Aİ) arasında iqtisadi əlaqələr ticarət, investisiya və enerji sahələrində qarşılıqlı faydalı əməkdaşlıqla xarakterizə olunur. Bu əlaqələr regional stabilliyin təmin olunması, texnologiya mübadiləsi və sosial-iqtisadi inkişaf üçün də mühüm imkanlar yaradır. Azərbaycanın strateji coğrafi mövqeyi və zəngin təbii resursları, Avropa İttifaqının isə iqtisadi gücü və texnoloji imkanları əməkdaşlığın tərəflər üçün strateji əhəmiyyətini və uzunmüddətli perspektivini təmin edir.

Avropa İttifaqı 27 dövləti birləşdirən dövlətlərarası iqtisadi və siyasi təşkilatdır. Rəsmi olaraq 1993-cü il noyabrın 1-də Maastrixt sazişi ilə təsis edilib. Lakin Aİ-nin tarixi daha əvvələ - 1951-ci il aprelin 18-nə gedib çıxır. Həmin gün Belçika, Almaniya, Fransa, Niderland, Lüksemburq və İtaliya tərəfindən Avropa Kömür və Polad Birliyi (AKPB) yaradılıb. Bununla da Avropada iqtisadi əməkdaşlığın təməli qoyulub. Əslində, birliyin yaranmasının başlıca səbəbi Avropa ölkələri arasında vaxtilə tez-tez baş verən qanlı müharibələrdir. 1870-1945-ci illərdə təkcə Fransa və Almaniya arasında çoxsaylı insan tələfatı ilə nəticələnən üç müharibə baş verib. Bu faciələrdən sonra bəzi Avropa ölkələrinin liderləri sülhün təmin olunmasının yeganə yolunun ölkələrin iqtisadi və siyasi sahələrdə birləşməsi olduğunu düşünərək belə bir təşəbbüsə imza atıblar.

Azərbaycan Avropa İttifaqına üzvlük istiqamətində birbaşa addımlar atmasa da, "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində, eləcə də enerji, ticarət və digər sahələrdə Aİ ilə fəal əməkdaşlıq edir. Azərbaycanın regiondakı strateji tranzit mövqeyi, Avropa ilə Asiyanın quru və hava nəqliyyat yollarının kəsişdiyi ərazidə yerləşməsi, həmçinin Avrasiyada mühüm nəqliyyat qovşağı rolunu oynaması ölkəni Avropa İttifaqı üçün cəlbedici tərəfdaş edir. Bu əməkdaşlıq texnologiya mübadiləsi, investisiya imkanlarının genişləndirilməsi və regional stabilliyin təmin olunmasına da töhfə verir. Beləliklə, Azərbaycan və Aİ arasında qarşılıqlı faydalı münasibətlər tərəflərin strateji maraqlarına və regional inkişafın sürətlənməsinə xidmət edir.

Aİ Azərbaycanın neftdənkənar sahəyə və infrastruktur layihələrinə investisiyalar yatıraraq iqtisadi şaxələndirməyə dəstək verir. Ticarət əlaqələrinin genişləndirilməsi, standartların uyğunlaşdırılması və texnologiya transferi isə iki tərəf arasında iqtisadi əməkdaşlığın keyfiyyətini artıran əsas amillərdəndir. Bu iqtisadi əməkdaşlığın önəmi və perspektivləri Azərbaycan və Avropa İttifaqı rəhbərlərinin qarşılıqlı görüşlərində də vurğulanır. Tərəflər enerji təhlükəsizliyi, ticarət əlaqələrinin inkişafı və investisiya imkanlarının genişləndirilməsi kimi sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın əhəmiyyətini hər zaman qeyd edirlər. Görüşlərdə həmçinin innovasiya, texnologiya transferi və neftdənkənar sahənin şaxələndirilməsi məsələləri müzakirə olunur.



Bu mənada Aİ Şurasının prezidenti Antonio Koştanın Azərbaycana iki gün öncəki səfəri çərçivəsində liderlərin mətbuata bəyanatında Prezident İlham Əliyevin söylədiyi bu fikirlər deyilənləri təsdiq edir: "Mən bəzi iqtisadi göstəricilərə nəzər saldım və gördüm ki, bu ilin yanvarında ticari dövriyyəmizin 50 faizi Avropa İttifaqı ilə bağlı olub. Ötən il dövriyyə bir az aşağı olmuşdur, lakin o, həqiqətən göstərir ki, Avropa İttifaqı bizim üçün birnömrəli ticari tərəfdaşdır. Əminəm ki, yeni layihələr və yeni investisiya imkanları ilə sərmayələr iki istiqamətdə yatırılacaq. Hazırda biz həmçinin Avropada fəal şəkildə sərmayə yatırırıq. Ticari dövriyyəmiz birmənalı olaraq artacaq. Tərəfdaşlığımızın mühüm hissəsi hər zaman enerji əməkdaşlığı olub, var və birmənalı olaraq olacaq".

Qeyd edək ki, liderlərin mətbuata birgə bəyanatının əsas mahiyyəti Azərbaycan-Aİ münasibətlərinin yeni mərhələyə qədəm qoyduğunu və strateji tərəfdaşlıq xarakterini yüksək səviyyədə təsdiqləməsidir. Bəyanat Azərbaycan ilə Aİ arasında əlaqələrin birgə maraqlara əsaslandığını, qarşılıqlı hörmət, bərabərlik və ortaq fayda prinsipləri çərçivəsində inkişaf etdiyini vurğulayır. Birgə bəyanatın əsas mesajlarından biri də odur ki, Azərbaycan-Aİ tərəfdaşlığı yalnız enerji və nəqliyyat sahələri ilə məhdudlaşmır. Tərəflər müdafiə və təhlükəsizlik, rəqəmsal transformasiya və innovasiya, humanitar minatəmizləmə, bərpaolunan enerji və iqlim, eləcə də təhsil, mədəniyyət sahəsində əməkdaşlığı genişləndirmək niyyətini ifadə edirlər. Bu çoxşaxəli tərəfdaşlıq imkanları yeni əməkdaşlıq perspektivləri açmaqla, Azərbaycan və Aİ arasındakı iqtisadi əlaqələri uzunmüddətli və dayanıqlı əsasda inkişaf etdirmək əzmini vurğulayır. Bu inkişaf Azərbaycan və Aİ arasındakı münasibətlərin davamlı olaraq gücləndiyini sübut edir.

Son illər tərəflər arasında əməkdaşlıqda müşahidə olunan irəliləyişlər fonunda ötən il Azərbaycan və Aİ rəsmilərinin qarşılıqlı səfərləri, təhlükəsizlik, enerji və nəqliyyat sahələrində uğurla təşkil edilmiş dialoqlar da əlaqələrin inkişafına öz töhfəsini verib. Bu müsbət dinamika əməkdaşlığın yeni səviyyəyə yüksəlməsi üçün əlverişli şərait yaradıb. Həqiqətən də, son iqtisadi göstəricilər Aİ ilə ticarət və investisiya sahəsində qarşılıqlı faydalı münasibətlərin xüsusi əhəmiyyət daşıdığını ortaya qoyur.

Göründüyü kimi, Azərbaycan və Avropa İttifaqı arasında iqtisadi əlaqələr davamlı olaraq genişlənir və dərinləşir. İqtisadiyyatda qarşılıqlı faydalı əməkdaşlıq tərəflərin strateji maraqlarını təmin etməklə yanaşı, regional stabilliyin və inkişafın sürətlənməsinə də töhfə verir. Birgə səylər və həyata keçirilən layihələr göstərir ki, Azərbaycan-Aİ münasibətləri yalnız iqtisadi əməkdaşlıqla məhdudlaşmır, həm də sosial, təhsil, mədəniyyət və innovasiya sahələrində yeni perspektivlər açır. Beləliklə, əməkdaşlığın davamlılığı və strateji xarakteri tərəflərin qarşılıqlı maraqlarına və uzunmüddətli dayanıqlı tərəfdaşlığa əsaslanan münasibətlərin möhkəmlənməsinə xidmət edir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Naxçıvandan sülh və qətiyyət mesajı

Təməl gücünü ortaq tarixi köklərimizdən və gündən-günə inkişaf edən qardaşlıq əlaqələrindən alan Türkiyə-Azərbaycan birliyi bu gün dünya üçün nümunədir. Reallıqdır ki, müasir dünya siyasətinin mürəkkəb geosiyasi arenasında dövlətlərarası münasibətlər çox vaxt müvəqqəti maraqlar üzərində qurulur.

Bu mənada Azərbaycan və Türkiyə arasındakı münasibətlər həmin qlobal qaydalara zidd, unikal xarakter daşıyır. Hazırda Bakı və Ankara arasındakı həmrəylik, xüsusilə iki ölkənin liderləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasındakı qarşılıqlı etimada söykənən şəxsi dostluq münasibətləri həm də regionun təhlükəsizliyinin əsas sütununa çevrilib. Təsadüfi deyil ki, hər iki ölkə terrorizm, işğal və digər təhdidlərə qarşı birgə mübarizə aparmağı bir dövlət ənənəsinə çeviriblər.

Martın 11-də Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı, ordu generalı Metin Tokelin rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfəri regional proseslərin mürəkkəbləşdiyi bir dövrdə xüsusi əhəmiyyət kəsb edirdi. Bu səfər regiondakı geosiyasi mənzərə fonunda Türkiyənin Azərbaycanın yanında olmasının əyani nümayişi idi.



### Müttəfiqliyi zirvəyə daşıyan sənəd

2021-ci il iyunun 15-də - xalqımız üçün rəmzi məna daşıyan Qurtuluş Günündə Azərbaycan və Türkiyə arasında Qarabağda imzalanan Şuşa Bəyannaməsi bu sarsılmaz birliyi beynəlxalq hüquq müstəvisində ən yüksək zirvəyə daşıdı. Bu bəyannaməni, sadəcə, iki dövlətin niyyət protokolu deyil, regionun təhlükəsizlik balansını tənzimləyən strateji sənəd də adlandırmaq olar.

Ölkələrimizin regional güc mərkəzi kimi beynəlxalq səviyyədə mövqeyinin möhkəmlənməsinə mühüm zəmin yaradan bu bəyannamənin müddəalarında göstərilir ki, tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur.

Sənədin müddəalarından da aydın olduğu kimi, bir dövlətin təhlükəsizliyinin, ərazi bütövlüyünün təhdid edilməsi digəri üçün də təhdid kimi qəbul ediləcək və lazımi tədbirlərin həyata keçirilməsi öhdəçiliyini yaradacaq.

Ümumiyyətlə, bu bəyannamə Azərbaycan və Türkiyənin təhlükəsizliyinin artıq bölünməz bir bütövə çevrildiyinin göstəricisi oldu.

Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin modernləşdirilməsi, birgə fəaliyyət qabiliyyətinin artırılması və müasir hərbi texnologiyaların tətbiqi istiqamətində atılan addımlar da məhz bu amala xidmət edir.

### "Bir millət, iki dövlət"

Bu kontekstdə Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı, ordu generalı Metin Tokelin rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfəri də bir növ dünyaya mesaj xarakteri daşıyırdı.

Sözügedən səfər çərçivəsində qonaqlar Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) qərargahında olublar. Ordu generalı Metin Tokel bölgədə sabitliyin gücləndirilməsi və təhlükəsizliyin tam təmin edilməsi məqsədilə Türkiyənin daim Azərbaycanın yanında olduğunu və tarixi Şuşa Bəyannaməsinin müddəalarına uyğun olaraq, istənilən hərbi yardımı göstərməyə hazır olduqlarını bildirib. Ordu generalı iki ölkə arasındakı münasibətlərin strateji və hərbi tərəfdaşlıq baxımından möhkəm təmələ sahib olduğunu söyləyib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunlarının komandanı, ordu generalı Metin Tokelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Metin Tokel strateji müttəfiqliyə əsaslanan hərbi əməkdaşlığın daha da genişləndirilməsi baxımından qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayıb. O, Azərbaycan Ordusunun davamlı inkişaf etdiyini və bunun qardaş Türkiyədə böyük məmnunluq doğurduğunu qeyd edib.

Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunlarının komandanı Metin Tokel Naxçıvan Muxtar Respublikasına dron hücumunun narahatlıq doğurduğunu diqqətə çatdırıb. Onun Naxçıvandan verdiyi bəyanatlar Türkiyənin qətiyyətli mövqeyini bir daha təsdiqlədi. O, bölgədə sabitliyin gücləndirilməsi və təhlükəsizliyin tam təmin edilməsi üçün ölkəsinin daim Azərbaycanın yanında olduğunu xüsusi vurğuladı. Bu, Şuşa Bəyannaməsinin müddəalarının kağız üzərində deyil, real meydanda hər an tətbiq olunmağa hazır olduğunu göstərən bir mesaj idi.

Ordu generalı Metin Tokelin səfər çərçivəsində səsləndirdiyi fikirlər Naxçıvandan bütün dünyaya, xüsusilə də regionda sabitliyi pozmağa meyilli olan qüvvələrə ünvanlanmış ciddi xəbərdarlıq idi. Azərbaycana yönələn hər hansı təhdid, o cümlədən Naxçıvana dron hücumları ilə bağlı narahatlığın ifadə edilməsi Türkiyənin bu strateji bölgəni diqqətdə saxladığının göstəricisidir.

Ümumiyyətlə, qardaş ölkələrin liderlərinin İranın raket hücumları ilə bağlı bir-birlərinə zəng vuraraq dəstək göstərməsi Azərbaycan və Türkiyənin sarsılmaz birliyini bir daha nümayiş etdirdi. Bu gün Azərbaycan-Türkiyə birliyi dünyada hesablaşılan böyük gücə çevrilib. Regionla bağlı istənilən layihə və ya məsələ bu iki ölkənin maraqları nəzərə alınmadan reallaşdırıla bilməz.

İstər prezidentlərin martın 5-də və 9-da qarşılıqlı telefon zəngləri, istərsə də ordu generalı Metin Tokelin Naxçıvan səfəri bir daha göstərdi ki, Türkiyə və Azərbaycan "bir millət, iki dövlət" olaraq bölgədə sülhün və təhlükəsizliyin əsas qarantıdırlar.

Bu birlik həm də ondan xəbər verir ki, Azərbaycanın suverenliyinə qarşı yönələ biləcək hər hansı təhdidin qarşısında hər zaman iki qardaş dövlətin ortaq və sarsılmaz gücü dayanacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Türkiyə və Azərbaycan regionun təhlükəsizliyi məsələsində bir yerdədirlər

Türkiyə və Azərbaycan arasında münasibətlər təkcə siyasi və hərbi əməkdaşlıqdan ibarət deyil, həm də tarixi, mədəni və mənəvi köklərə söykənir. Türkiyənin Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı ordu generalı Mətin Tokelin rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvana səfəri hər şeydən əvvəl strateji məna daşıyır. Bu gün regionda baş verən hadisələr fonunda bu səfər regionun xüsusi geosiyasi mövqeyindən xəbər verir. Naxçıvanın Türkiyə ilə birbaşa quru sərhədi var, həmçinin Azərbaycan üçün bu bölgə əhəmiyyətli strateji məntəqə, dayaq nöqtəsidir.



Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev qəzetimizə açıqlamasında deyib ki, səfərdən bir neçə nəticə əldə etmək olar. Bu səfər həm də regional aktorlara mesajdır. "Türkiyəli ordu generalının Naxçıvana səfəri Türkiyə və Azərbaycanın təhlükəsizlik məsələlərində bir yerdə olduğunu, koordinasiyalı şəkildə hərəkət etdiyini bir daha göstərir. Təbii ki, hərbi əməkdaşlığın davam etməsi, birgə təlimlər, müdafiə sahəsində koordinasiyalı iş təcrübəsi mübadiləsinin davamlı şəkildə aparılmasını təsdiqləyir. "Yəni bu gün Türkiyə regionda sabitliyin qorunmasında Azərbaycanın yanında olduğunu göstərir. Ordu generalının səfəri zamanı Şuşa Bəyannaməsinin əhəmiyyəti bir daha vurğulanıb. 2021-ci ildə imzalanan bəyannamə iki ölkə arasında münasibətlərin strateji müttəfiqlik səviyyəsinə çatdığını təsdiqləyən sənəddir. Regionda yeni təhlükəsizlik şəraiti yaranarsa, qarşısının alınması istiqamətində birgə addımlar, müdafiə və təhlükəsizlik sahəsində bir-birinə yardım, iqtisadi cəhətdən əməkdaşlığın genişlənməsi nəzərdə tutulur. Bu bəyannamənin bir daha xatırlanması istənilən bir dövlətə diplomatik mesajdır. Türkiyə müxtəlif sahələrdə - istər birgə hərbi təlimlər, istərsə də Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğun qurulması istiqamətində Azərbaycana dəstək verir. Eyni zamanda beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini müdafiə edir. Azərbaycan da analoji addımları atır", - deyə deputat bildirib.

A.Nağıyev qeyd edib ki, Türkiyə generalının Naxçıvana səfəri çərçivəsində Şuşa Bəyannaməsinin xatırlanması Azərbaycan və Türkiyənin yalnız dost deyil, strateji təhlükəsizlik tərəfdaşları olduqlarını da bir daha göstərdi. Bu münasibətlər ancaq iki dövlət arasında ümumi maraqlardan deyil, daha dərin - hərbi müttəfiqlikdən, iqtisadi inteqrasiyadan irəli gəlir. Bu cür səylər regionda sabitliyin bərqərar olması üçün bir mesajdır, həmçinin regionun təhlükəsizliyi və iqtisadi inkişafın mühüm amillərindən biridir. Bu proseslərdə Azərbaycan və Türkiyə liderlərinin rolu danılmazdır. Onların bir-birinə səmimi münasibəti əlaqələrin dərinləşməsinə mühüm təsir göstərir.

Komitə sədri vurğulayıb ki, Türkiyə tərəfindən verilən son mesajlar da iki dövlətin yalnız iqtisadi, siyasi cəhətdən deyil, "bir millət, iki dövlət" prinsipindən çıxış etdiyini göstərir. Azərbaycanın əsas prinsipləri suverenlik, ölkənin ərazi bütövlüyü və hər bir vətəndaşın rifahıdır. Prezident İlham Əliyevin də yürütdüyü siyasət xətti buna əsaslanır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Yeni Ermənistan konstitusiyasında Müstəqillik Bəyannaməsinə istinad olmamalıdır

"Ermənistanın yeni konstitusiyasında Müstəqillik Bəyannaməsinə istinad edilməməlidir".



AZƏRTAC xəbər verir ki, bu fikri Baş nazir Nikol Paşinyan hökumətin iclasından sonra keçirilən brifinqdə səsləndirib. "Müstəqillik Bəyannaməsi münaqişə məntiqi üzərində qurulub. Biz bu məntiqlə müstəqil dövlət qura bilmərik. Yeni Ermənistan konstitusiyasında Müstəqillik Bəyannaməsinə istinad olmamalıdır", - deyə o bildirib.

Paşinyan vurğulayıb ki, Azərbaycanla sülh müqaviləsi imzalamaq üçün səssiz və sakit diplomatik işlər aparılır. "Bu müqavilənin imzalanacağına şübhə etmirəm. Ermənistanda sülh əldə olunmasını istəməyən qüvvələr var. Biz, Ermənistan vətəndaşları sülhün qayğısına qalmalı və onu dönməz hala gətirməliyik", - deyə Baş nazir əlavə edib.

# Ermənistan geosiyasi dönüş nöqtəsindədir

## Paşinyanın Strasburqda etdiyi çıxış İrəvanın yeni reallıqları qəbul etdiyinin göstəricisidir

Ermənistan hökumətinin siyasətində müşahidə olunan praqmatik dəyişiklik ölkənin ən kəskin dönüş nöqtələrindən biridir. Baş nazir Nikol Paşinyanın müxtəlif beynəlxalq və daxili platformalarda səsləndirdiyi tezislər "böyük Ermənistan" utopiyasından imtina olunduğunu, regional reallıqların məcburən də olsa, qəbul edildiyini təsdiqləyir.

Hökumət rəhbərinin Strasburqda Avropa Parlamentinin kürsüsündən dilə gətirdiyi fikirlər də Ermənistanın xarici siyasətində və hərbi-siyasi doktrinasında baş verən fundamental dəyişikliyin təzahürüdür. Paşinyan öz çıxışında uzun illərdir arxalandıqları "hərbi balans" və "status-kvo" siyasətinin iflasını açıq şəkildə etiraf edib. Baş nazir vurğulayıb ki, təhlükəsizlik anlayışı zamanla hərbi yanaşmadan siyasi-diplomatik yanaşmaya doğru dəyişir: "Təhlükəsizliyin yeganə qarantı sülhdür. Sülhdən daha etibarlı qarant yoxdur. Düşünürəm ki, bu məntiqə daha çox fokuslanmalıyıq".

Nikol Paşinyan bu çıxışı ilə təhlükəsizliyin siyasi tanınmadan asılı olduğunu vurğulayaraq Ermənistan cəmiyyətini sonu fəlakət olan illüziyalardan uzaqlaşdırmağa çalışır. Paşinyan ölkədəki revanşist qruplardan fərqli olaraq aydın dərk edir ki, Ermənistanın hərbi resursları Azərbaycanın güclənən hərbi-siyasi potensialı qarşısında dayanıqsızdır. Ona görə də Ermənistanın mövcudluğunu yalnız beynəlxalq hüquq və qarşılıqlı tanınma müstəvisində qoruya biləcəyinə diqqət çəkir. Bu həm də illərlə Rusiyanın hərbi çətiri altında təhlükəsizlik axtaran Ermənistanın kənar güclərə inamsızlığının nümayişidir. Yəni Paşinyan demək istəyir ki, ordu, yaxud kənar dəstək Ermənistanı sülh qədər etibarlı qoruya bilməz. Baş nazirin ritorikası həm də Qərbə mesajdır. O, Ermənistanı "sülhsevər və diplomatik həll tərəfdarı" kimi təqdim edərək regionda yaranmış yeni reallıqlarda beynəlxalq dəstəyi özünə cəlb etməyə çalışır.



N.Paşinyan bildirib ki, şəxsən özü vətəndaş cəmiyyəti nümayəndələrinin Azərbaycanla sərhəddəki Kirants kəndinə səfərlərini təşkil edir ki, insanlara "sülh" deyəndə nəyi nəzərdə tutduqlarını, "real Ermənistan" deyəndə nə demək istədiklərini göstərsin: "Biz Ermənistan və Azərbaycan arasında sülhü 21 dekabr 1991-ci il tarixli Almatı Bəyannaməsi əsasında bir-birimizin ərazi bütövlüyü, suverenliyi və müstəqilliyini tanımaqla qurmuşuq". Baş nazirin bu bəyanatı Ermənistanın daxili siyasətində son ayların ən mübahisəli mövzusu olan "real Ermənistan" konsepsiyasının praktiki tətbiqidir. Əlelxüsus, Kirants (Xeyrımlı) kəndi üzərindən aparılan bu təbliğat psixoloji keçid dövrünün anonsudur. Paşinyan çalışır ki, ermənilər sərhəd dirəklərinin əhəmiyyətini anlasınlar və dirəkdən o tərəfin başqa dövlətin ərazisi olduğunu birmənalı qəbul etsinlər. Paşinyanın 1991-ci il Almatı Bəyannaməsini hər çıxışında xatırlatması təsadüfi deyil. Baş nazir bu bəyannaməni sülhün təməli, mövcud sərhədlərin toxunulmazlığının yeganə legitim sənədi kimi təqdim etməklə daxildəki revanşist qüvvələrin "sərhədlər yenidən çəkilməlidir" iddialarını sıradan çıxarır.

Hökumət rəhbəri Ermənistan və Azərbaycan arasında sülhün bərqərar olduğunu desə də, sülhün qayğıya ehtiyac duyduğunu, əks halda çox tez dağılacağını bildirib. Baş nazirin ifadələri sülhə ehtiyac duyan bir ölkənin hər an hər şeyi itirə biləcəyi qorxusunu bariz şəkildə ortaya qoyur. Hökumət başçısı xarici auditoriyaya müharibə səhifəsinin qapandığı mesajını verməklə bərabər, yekun sülh müqaviləsinin hələ imzalanmamasını və sərhədlərin tam delimitasiya olunmamasından irəli gələn narahatlığını dilə gətirir. Bu yanaşma erməni toplumunu revanşistlərə uymaqdan çəkindirmək taktikası da hesab oluna bilər.

N.Paşinyan daxildəki müxaliflər və onların xaricdəki havadarları tərəfindən mütəmadi gündəmə gətirilən Qarabağdakı ermənilərin könüllü Ermənistana köçməsi məsələsini də diqqətdən kənarda qoymayıb. Baş nazir bu məsələdə strategiyalarının tam aydın olduğunu söyləyib: "Qarabağdan olan bacı-qardaşlarımız Ermənistan vətəndaşlığını almalı və həmişəlik Ermənistanda məskunlaşmalıdırlar". Paşinyanın dəfələrlə səsləndirdiyi bu ifadələri Avropa Parlamentinin kürsüsündən təkrar bəyan etməsi "miatsum" ideologiyasının və Qarabağdakı ermənilərdən siyasi rıçaq kimi istifadə etmək cəhdlərinin "dəfn olunması"nın növbəti elanıdır. Hökumətin Qarabağı könüllü tərk etmiş ermənilərə vətəndaşlıq verməsi onların "qayıdış" adı altında hər hansı siyasi-hərbi revanşist hərəkatlara qoşulma ehtimalını minimallaşdırmaq cəhdidir.

Baş nazir din adamları və onlara dəstək verən xarici qüvvələrin səylərinə baxmayaraq, Azərbaycanla ölkəsi arasında yeni müharibənin olmayacağını birmənalı bəyan edib: "Yeni müharibəyə, minlərlə qurban bahasına əldə olunmuş sülh və müstəqilliyin anti-xristian məqsədlər naminə qurban verilməsinə imkan verməyəcəyik".

Son dönəmlərdə Paşinyan kilsəyə qarşı çox sərt tonla çıxış edir. O, "anti-xristian məqsədlər" ifadəsi ilə kilsə rəhbərliyinin mənəvi baxımdan deqradasiyaya uğradığını göstərməyə çalışır. Özünü "sülhün qarantı", kilsəni isə "müharibə təbliğatçısı" kimi qələmə verərək cəmiyyəti seçim qarşısında qoyur.

Nəticə etibarilə rəsmi İrəvan "tarixi Ermənistan" xülyası ilə yaşamağın dövlət üçün ölümcül olduğunu anlayır və regionun əsas oyunçuları ilə real münasibətlər qurmağa çalışır. Lakin bu yol heç də rəvan deyil, çünki Paşinyan daxildəki revanşistlərlə, cəmiyyətdəki psixoloji travmalarla və regional güclərin maraqları arasında manevr etmək çətinliyi ilə üz-üzədir. İstənilən halda indi top Ermənistan ictimaiyyətində və onun rəhbərindədir. Paşinyanın irəli sürdüyü konsepsiya Ermənistanın müstəqil bir dövlət kimi mövcudluğunu davam etdirməsi üçün son şansdır. Ermənistanın hazırki konstitusiyasında ərazi iddiaları tamamilə aradan qaldırılacağı təqdirdə Bakı İrəvanla yekun sülh sənədinə imza atacağını ən yüksək səviyyədə dəfələrlə elan edib.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*




# Qədimdən qədim yeni gün

**Azərbaycan xalqı qədim zamanlardan bahar fəslinin gəlişini səbirsizliklə gözləyib, təmtəraqla qarşılayıb. Çünki bu fəslin gəlişi ilə təbiət buz nəfəsli, qarlı, çovğunlu, qaşqabaqlı qışla vidalaşır, dünyaya, insanlara gülümsəyən, bolluq-bərəkət vəd edən, ümid gətirən bahara "xoş gəldin" deyir. Odur ki, qədimdə insanlar bu fəslin gəlişinə həm də çətinliklərdən qurtuluş, işığın, Xeyrin qələbəsi kimi baxırdılar.**



Əlbəttə, hər il bahar fəslinin başladığı bir gün olur. Bu il də yaz fəsli Azərbaycana martın 20-si saat 18:45-də qədəm qoyacaq. Həmin gün gecə ilə gündüz bərabərləşəcək və Günəş düz şərqdə doğub, qərbdə batacaq. Günəş ekliptika üzrə hərəkət edib ekvatoru kəsərək Cənub yarımkürəsindən Şimal yarımkürəsinə keçəcək. Həmin andan Şimal yarımkürəsində yaz, Cənub yarımkürəsində isə payız fəsli başlayacaq. Bu il yaz fəslinin uzunluğu 92 gün 17 saat 38 dəqiqə 28 saniyə olacaq.

Ancaq xalqımız qədimdən baharın yalnız gəldiyi günü bayram etməyib. Onun gəlişinə günlərlə hazırlıq görüb. Məlumdur ki, Novruz bayramına gələn yol dörd mərhələdən keçir. Azərbaycan xalqı Novruz bayramınadək dörd çərşənbəni də bayram edir. Çərşənbələrin ilki Su, ikincisi Od, üçüncüsü Yel, dördüncüsü isə Torpaq çərşənbəsi adlanır. Torpaq çərşənbəsinə ilaxır çərşənbə də deyirlər. Hər çərşənbə bayramının özünəməxsus adət-ənənələri var.

Novruz bayramının keçirilməsinə günlərlə hazırlıq görülür. Hər yerdə səliqə-sahman, təmizlik işləri aparılır. Evin hər künc-bucağı təmizlənir, pal-paltar, xalça-palaz yuyulur. Novruzda aparılan təmizlik işlərinin xüsusi mənası var, çünki Novruz həm də təmizlənmə, yenilənmə deməkdir.

Azərbaycan xalqının sevimli bayramı olan Novruz adət-ənənələrlə zəngindir Bunlardan biri də səməni becərməkdir. Novruzun ən vacib atributlarından olan səməni baharın ilk müjdəçilərindən hesab olunur. İnsanlar bayrama günlər qalmış səməni göyərtməklə növbəti təsərrüfat ilinin bərəkətli keçməsini, bolluq, furavanlıq arzularını ifadə edirlər.

Novruz bayramında mütləq yumurta boyanır. Yumurta həyatın, dünyanın yaranışı mənasını daşıyır. Araşdırıcıların qənaətincə, yumurta oval, dairəvi formada olduğundan qalaktikanı simvolizə edir. Ulularımızın yumurtanın ağ, göy, yaşıl, qırmızı rənglərə boyamaları dörd fəslin rəmzi, əmin-amanlıq kimi yozulur.

Novruz bayramında açılan süfrəyə xüsusi diqqət göstərilir, ona günlərlə hazırlıq görülür. Bayrama günlər qalmış paxlava, şəkərbura, qoğal və başqa şirniyyatlar bişirilir. Novruz şirniyyatları da fəlsəfi məna daşıyır. Qoğal Günəşə, şəkərbura Aya, paxlava isə ulduzlara işarədir.

Hər evdə mütləq bayram xonçası hazırlanmalıdır. Bu bayramda xonça bəzəmək Azərbaycan xalqının qədim adətlərindəndur. Xonça Novruz bayramının vacib hesab edilən atributlarından biridir. Bayram xonçası şamsız olmamalıdır. Şam Günəşin yerdəki rəmzi hesab edilir. Adətən xonçaya ailə üzvlərinin sayı qədər şam düzülür. Ailə başçısı il təhvil olan anda şamları yandırmalı və ailəsinə sağlamlıq, xoşbəxtlik, ocağına xeyir, ruzi-bərəkət diləməlidir.

Azərbaycan xalqının qədimdən bu günədək Novruz bayramında süfrəsinin zəngin olmasına diqqət yetirməsi də yeni ilin bolluq, firavanlıq içərisində keçməsi arzusundan irəli gəlir. Ölkəmizin bəzi bölgələrində bu gün də hesab edirlər ki, bayram süfrəsində "s" hərfi ilə başlayan yeddi növ xörək olmalı, sumax, sirkə, süd, səməni və səbzi kimi məhsullar yer almalıdır. Onlardan əlavə, Novruz bayramında süfrədə qoz, fındıq da olmalıdır. İnanca görə, qoz, fındıq güc deməkdir.

Bayram axşamı ailənin bütün üzvləri birlikdə süfrə başına keçməlidirlər. Ənənəyə görə bayramın ilk günü evdə olmaq vacib sayılır. Deyirlər ki, əgər bayram günü evdə olmasan, yeddi il evdə olmayacaqsan.

Göründüyü kimi, Novruz bayramı yalnız təbiətin oyanışı və həyatın təzələnməsi ilə əlaqəli deyil, həm də Azərbaycan xalqının mədəniyyətini və mənəvi dəyərlərini əks etdirən bir simvoldur. Bu bayramda hər bir adət, hər bir mərasim xalqımızın qədimliyinin, mənəvi zənginliyinin, birlik və həmrəylik arzusunun ifadəsidir. Novruz insanları bir araya gətirən, ailə bağlarını möhkəmləndirən bayramdır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



# "Cıdır tamaşaları"

**Novruz bayramında bir-birindən rəngarəng oyun və tamaşalar göstərilir. Bunların içərisində atçapma, qılıncoynatma, kəməndatma, zorxana, əyləncə, kəndirbaz, sim pəhləvanı, masqara və fərdi tamaşalar xüsusi yer tutur. Həmin tamaşalarda oxunan nəğmələr özünəməxsus oynaq vəznə malikdir.**

"Cıdır tamaşaları" Novruzda xüsusi yer tutur. Bu tamaşaların icraçıları əsasən igid, cəngavər cavanlar olardı. Onlar arasında yaxşı at çapmaq igidlik hesab edilərdi. Yaxşı atçapanların baxışına elat çıxardı. Cıdırda qalib gələnə el içində böyük ehtiram bəslənərdi. Sonralar xalqın bir sıra mərasimləri - adqoyma, bəylikvermə, qızseçmə və s. cıdır tamaşaları ilə sıx əlaqələndirilmiş, cıdır xalq məişətini geniş lövhələrdə əks etdirən kütləvi meydan tamaşasına çevrilmişdir.

Novruz bayramında cıdır həvəskarları, xüsusən atları cıdıra hazırlayan cavanlar, onların yaxın adamları, bəzən də sevdiyi qızlar müxtəlif nəğmələr oxuyardılar. Bu nəğmələrdə uğur dilənər, ata yaxşı qaçış arzulanardı.

Cıdır nəğmələrinin elələri var ki, onlar cıdır tamaşalarının etnoqrafik cizgilərini əks etdirir.

*Hər ovqatlı,*
*Yel qanadlı,*
*Asta tullat*
*Çapanları.*

*Bər-bəzəkli,*
*Ər şövkətli*
*Ağ köhlənim,*
*Dağ köhlənim,*
*Çap tozuna*
*Yel yetişsin.*
*Sığallayıb*
*Gözlərini,*
*Görüşünə*
*El yetişsin.*
*Yarıda qoy*
*Çapanları.*
*Qoy sancsınlar*
*Xan ağamın*
*Yapıncına*
*Xan cıdırın*
*Çələngini,*
*Qız-gəlinlər*
*Yarı yolda*
*Qoysun yerə*

*Səhəngini,*
*Hər övqatlı,*
*Yel qanadlı,*
*Çap, köhlənim,*
*Çap, köhlənim...*

Növruz günlərində keçirilən cıdıra hazırlıq kiçik çillədən başlanardı. Deyərdilər ki, kiçik çillənin ilk günü sübhdən suvarılan at cıdırda dala qalmazmış.

Cıdırqabağı atlar qaşovlanar, təmizlənər, nallanar və bəzədilərdi. Cıdır atları üçün xüsusi mis zınqırovları olan yüyənlər düzəldilər, qotazlı yəhərüstülər, xalçalar toxunardı. Saçaqlı və qotazlı toxumalar cıdır atlarına xüsusi gözəllik verərdi. Cıdır atlarını bəzəyən əsas rənglərdən biri qırmızı rəng idi. Qırmızı qotazlar və parçalar üzərinə üzərlik sancılardı.

Cıdır ya səhər, ya da günortadan sonra başlanardı. Daha əvvəllər cıdırlar çay kənarında, düzən yerlərdə keçirilərdi. Həmin gün elat bayram edərdi. Xonçalar düzülər, şamlar yandırılardı. Novruza düşən cıdırlar daha təmtəraqlı keçirilərdi. Cıdır vaxtında zurna, balaban, qaval çalınar, bəzən də tüfəng atılardı.

Cıdır tamaşaları atçapma ilə başlanardı. Atçapma qurtarandan sonra atoynatma başlayardı. Məşhur atçapanlar öz atlarını oynadardılar. Tamaşaları daha maraqlı etmək üçün cıdırçılardan sonra ox atanlar meydana çıxardı. Oxatanlar da at üstündə çapar, at çapa-çapa hədəfi nişan alardılar. Oxatanlar cıdıra yüngül geyimdə çıxar, atlarını bəzəyər, başlarına qırmızı və mavi fəs qoyardılar. Oxatanların atlarının zər-zibalı zınqırovundan və oxlarından qırmızı parça asılardı. At üstündə oxatanlar da müxtəlif oyunlar göstərərdilər. Qırx oxu bir həlqədən keçirmək, göyə alma atıb onu havada vurmaq peşəkar oxatanların məharətini nümayiş etdirməyin yaxşı nümunələrindən olmuşdur. Bu vaxt cıdıra çıxan cavanlar öz nişanlarını tərifləyən nəğmələr oxuyardılar.

Cıdır tamaşalarında oxatanlar içərisində bəzən qızlar da olardı. Lakin onlar kişi paltarında olduğundan başqa oxatanlardan o qədər də seçilməzdilər. Bu tamaşalarda oxatanların yaxın adamları tərəfindən oxunan bu nəğmələrdə oxatana uğur arzulanardı:

*Naz satan oğlan,*
*Ox atan oğlan,*
*Oxun hədəfə dəysin,*
*Boşalmasın kamanın,*
*Sevinməsin yamanın,*
*Uğur gəlsin baxtına,*
*Qurban kəsim taxtına.*

***Hazırladı:***
***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Qubanın Novruz adətləri



**İnsanın həyatında rastlaşdığı nə varsa, onun yaddaşına fərqli izlər buraxır. Onların ayrılıqda sənə verdiyi duyğular müxtəlif kateqoriyalara bölünür. Bəşəri dəyərlər içində yeganə bahar adət-ənənələridir ki, bütünlükdə insan və təbiətin birgə təmasından yaranıb. Bahar canlı və cansız dünyamız arasında bütün fərqləri aradan qaldıran möhtəşəm bərabərlik fəslidir.**

Azərbaycanın qədim və gözəl məkanlarından olan Quba Novruz bayramı ənənələrini qoruyub saxlayan yurd yeridir. Bura ölkəmizdə azsaylı xalqların, etnik qrupların əmin-amanlıq şəraitində yaşadığı bölgədir. Qubada yaşayan 160 minə yaxın insanın 20 mini tat və ləzgi, 4 mini xınalıqlı, 2 mini mexseti türkü, 3800 buduqlu, 2000 qrızlı, 1000-dən çoxu gürcü, tatar, ukraynalı, belarus, 4000 mindən çoxu isə yəhudidir. Amma burada yaşayanlar bir ocağın başına yığışmış mehriban ailədir. Bu ocaq onları bir varlıq kimi birləşdirir, xeyirdə, şərdə bir yerdə olmağı öyrədir.

Bahar adətlərində bu birlik daha çox üzə çıxır. Hərənin Novruz xonçasına qatdığı rəng sonda milli adətlərimizə çevrilib. Qubada deyirlər ki, bahar qapını döyüncə yeddi bostanın yeddi göyünün qutabını yemədinsə, demək, sən hələ qışla əlləşirsən. Axır çərşənbədə bulaq başına yığışar, suyu qablara doldurub göyərən torpağa səpərlər ki, bərəkət buralara hakim olsun. Sonra kol altından keçərlər ki, azardan, bezardan və şeytandan uzaq olsunlar.

Bayram gecəsi hərə evində bişirdiyindən qonşusuna pay göndərər, əlil və xəstələri ziyarət edərlər. Nügədi kəndinin cavanları Bəhyə dağına qalxar, ən hündür zirvədə tonqal qalayarlar. Kənddə bişirilən paxlava, şəkərbura, qoğal dolu xonçalar ev-ev paylanar. Papaqatdıda iştirak edən uşaqlar topladıqlarını bölər və ləzzətlə onu ocaq başında şirin-şirin yeyərlər.

Buduqlular bayram axşamı qovurmalı, yaxud cücə-plovdan başqa, əriştəli aş da bişirərlər. Sonuncunu ruzi rəmzi kimi qonşulara paylayarlar. Buduqda nə bişirərlərsə, hamısına mütləq şəkər qatarlar ki, gələn günlər xoş olsun. Xınalıqlılar Novruzda nişanlı qız evinə yeddi pay göndərərlər. Buna Xınalıq dilində "yıg tikə" deyirlər. Sevgi, sağlamlıq, mehribanlıq, bərəkət, ruzi, sədaqət və övlad rəmzlərini özündə ehtiva edən yeddilik gənc ailəyə dilənən arzulardır.

Qırmızı qəsəbədə yaşayan yəhudilər də bu bayramı eyni coşqu ilə qarşılayırlar. Nizami parkında qalanan tonqalın başında dövrə vuran tat, ləzgi, xınalıqlı, yəhudi, belarus, tatar və digərləri birgə şənlənir, Azərbaycanı vahid ailə kimi tərənnüm edirlər.

Bayramda qocaların, kimsəsizlərin, kasıb yaşayan əhalinin, çoxuşaqlı ailələrin qapısını açmaq təkcə adət deyil, həm də düşüncə tərzidir. Kənddə, qəsəbələrdə və rayon mərkəzində qonşular əllərində xonçalarla onları ziyarət edər, paylarını bölüşərlər. Qubada bir də şəhid məzarları ziyarət edilər. Şəhid ailələri üzvlərini qonşular evlərinə dəvət edər, xatirələri yada salarlar.

Bayramın on üçüncü günü Qudyalçayın sahilində böyük canlanma olar. Hamı əlindəki səmənisini suya atar və niyyət edər. Bura hərə bir arzu ilə gələr. Kənarda isə ötən il niyyət edənlər şirni paylayar, sevinclərini bölərlər.

Beləcə Bahar göylərin yerə növrağını çatdırar. Yurdumuzda Günəş parlar, təbiət yuxudan ayılar. Kainatın bir parçası olan Azərbaycanımızın hər guşəsinə Bahar ətri yayılar.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***



# Yel baba

**Deyilənə görə, Yel baba ilə Əkinçi baba qardaş imişlər. Bahar torpağa hərarət gətirəndə onlar birlikdə tarlanı şumlayıb əkinlərini əkərmişlər. Bundan sonra tarladakı işlərə Əkinçi baba cavabdeh imiş.**

O, məhsula su verər, ot-alaqdan təmizləyib becərər, yetişəndə də biçib xırmana gətirərmiş. Arpa-buğda dənini küləşdən, samandan ayırmaq isə Yel babanın işi imiş. Yel baba başqalarının da taxılını xırmanda sovurub əvəzində pay alarmış. Bir kərə adamlar yenə arpa-buğdanı xırmanda döyüb gözləyirlər ki, Yel baba gəlib onu sovursun. Amma o gəlib çıxmır ki, çıxmır. Səbri tükənmiş adamlar taxılı özləri sovurmağa başlayır və:

*Yel baba, amana gəl,*
*Dolanıb xırmana gəl,*
*Bir bəhanən yoxdursa,*
*Xəlbirə samana gəl.*
*A Yel baba, Yel baba,*
*Saman sənin, dən mənim.*

*Ləçəyi mindər-mindər,*
*Yönünü bizə döndər,*
*Yönünü döndərmirsən.*
*Mehini bizə göndər.*
*A Yel baba, Yel baba,*
*Saman sənin, dən mənim, -*

deyə oxuyurlar. Elə bu vaxt gəlib xırmana yetişən Yel baba eşitdiyi sözlərdən inciyib geri dönür. Adamlar öz əməlindən peşman olurlar. Hamı Yel babanın arxasınca qaçır və onu səsləyə-səsləyə oxuyurlar:

*A Yel baba, Yel baba,*
*Qurban sana, gəl, baba.*
*Taxılımız yerdə qaldı,*
*Yaxamız əldə qaldı.*
*A Yel baba, Yel baba*
*Qurban sana, gəl, baba.*

Bu nəğmə Yel babanın xoşuna gəlir. Geri qayıdıb xırmandakı buğdanı, arpanı sovurub samandan ayırır.




● I Türkoloji Qurultay - 100

# Uçurum

## Azərbaycanın ziddiyyətli siyasi simalarının 37-ci il faciələri

**Sovet imperiyasının 1930-cu illərdə tətbiq etdiyi siyasi mübarizə, idarəetmə üsulları və həyata keçirmək istədiyi "dövlət quruculuğu" bütün mahiyyəti ilə bəşəriyyətin minilliklər ərzində formalaşmış dəyərlər sisteminə zərbə oldu. Sovet cəza maşınının amansızlıqla fəaliyyət göstərdiyi həmin illər minlərlə insanın, o cümlədən azərbaycanlıların qanı ilə tarixə yazıldı.**

İmperiya cəlladları, demək olar ki, hamını eyni bir "cinayət"də - "vətənə xəyanət"də ittiham edib alovların içinə atırdılar. Həmin dövrdə elə hadisələr baş verirdi ki, onların gerçək mahiyyətini, səbəblərini insan şüuru ya ümumiyyətlə qavraya bilmir, ya da çox çətin qavrayırdı. O illərdə ən görkəmli ziyalıların, ən ağıllı mütəxəssislərin taleyi cəmi 15 dəqiqəlik məhkəmə proseslərində həll edilirdi. Verilən hökm əksər hallarda güllələnmə ilə nəticələnirdi. Sürgünlük nə qədər ağrılı, işgəncəli olsa da, bu cəzaya məhkum edilənlər ölümün pəncəsindən qurtulduqlarına görə şükürlər edirdilər. Niyə? Təəssüf ki, bu sistemin ideoloqları bu cür suallara cavab vermək istəmirdilər və əslində, heç cavabı da yox idi. Bu, sadəcə olaraq, insanlığını itirmiş bir ovuc cəlladın fəaliyyət strategiyasının əsasını təşkil edirdi.

Repressiyaya uğrayan ziyalıların əksəriyyəti 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayın nümayəndələri idi. Həmin qurultayda respublika rəhbərləri, nazirlər, komitə sədrləri də var idi. Arxiv materiallarından göründüyü kimi, İnoqamov Özbəkistanın, Perenqliyev Türkmənistanın, Mustafa Quliyev Azərbaycanın xalq maarif nazirləri idilər. Moskvalı nümayəndə Naqovitsın RSFSR-in sosial təminat naziri, Baraxov Yakutiya Xalq Komissarları Şurasının sədri, Qorxmazov Dağıstan Nazirlər Sovetinin sədri, əslən Qubadan olan azərbaycanlı Məmmədbəyov Dağıstanın, Mirzə Davud Hüseynov Zaqafqaziya Sosialist Federativ Sovet Respublikasının xalq maliyyə nazirləri olmuşlar.

1937-ci ildə İnoqamov da, Perenqliyev, Quliyev, Naqovitsın, Baraxov, Qorxmazov, Məmmədbəyov, Mirzə Davud Hüseynov da "xalq düşməni" kimi güllələniblər. Siyahıda Həmid Sultanov, Qəzənfər Musabəyov da vardı.

### "Köhnə bolşevik"



Həmid Sultanov Azərbaycanın sovetləşməsi dövrünün ən nüfuzlu və ziddiyyətli siyasi simalarından biri olmuşdur. Gənc yaşlarından fəhlə hərəkatına qoşulmuş, 1907-ci ildən "Hümmət" təşkilatının üzvü idi. O, Bakı fəhlələrinin tətillərində fəal iştirak etmiş, çar rejiminə qarşı gizli fəaliyyət göstərdiyi üçün dəfələrlə həbs olunmuşdur. 1917-ci ildən sonra bolşevik ideyalarının Azərbaycanda yayılmasında əsas təşkilatçılardan biri kimi tanınmışdır.

1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və sovet hakimiyyətinin qurulmasında H.Sultanov böyük rol oynamışdır. O, cümhuriyyət hakimiyyətinin devrilməsini tələb edən ultimatumu parlamentə təqdim edən şəxslərdən biri idi. Sovet hakimiyyəti qurulduqdan sonra yüksək dövlət postlarında çalışmış Həmid Sultanov 1920-1921-ci illərdə Daxili İşlər Xalq Komissarı vəzifəsində olarkən köhnə rejimin qalıqlarına qarşı sərt mübarizə aparmışdır. O, 1925-1927-ci illərdə ZSFSR-in MİK katibi olarkən dövlətin qanunvericilik və idarəetmə strukturunda mühüm qərarlara imza atmış, Naxçıvan MSSR Xalq Komissarları Sovetinin sədri kimi çalışaraq bölgənin idarə edilməsində ciddi rol oynamışdır. 1937-ci ildə H.Sultanov Azərbaycan SSR Kommunal Təsərrüfatı komissarı vəzifəsində işləmişdir.

Bu dövlət xadimi yalnız hərbi və siyasi işlərlə deyil, həm də Azərbaycanın modernləşməsi ilə məşğul olmuşdur. Xüsusilə savadsızlığın ləğvi, qadınların cəmiyyətə inteqrasiyası və əlifba islahatı (latın qrafikasına keçid) məsələlərində fəallıq göstərmişdir. I Türkoloji Qurultaydakı fəaliyyəti də məhz bu mədəni quruculuq işlərinin tərkib hissəsi idi.

Həmid Sultanov möhtəşəm tədbirin Təşkilat Komitəsinin üzvü olmuş, qurultayın rəyasət heyətində yer almışdır. Həmin dövrdə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin üzvü və digər yüksək vəzifələrdə çalışan H.Sultanov qurultayın ən önəmli qərarlarından biri olan ərəb əlifbasından latın qrafikalı yeni türk əlifbasına keçidi dövlət səviyyəsində dəstəkləyənlərdən olmuşdur. H.Sultanov həm də qurultayın siyasi xəttinin və sovet ideologiyasına uyğunluğunun təmin edilməsində "köhnə bolşevik" kimi mühüm rol oynamışdır.

O, "köhnə qvardiya" bolşeviklərindən olsa da, 1930-cu illərin ortalarında Stalin repressiyalarından qurtula bilməmiş, "əks-inqilabi fəaliyyət" və "millətçilik" kimi ittihamlarla həbs edilmişdir. 1938-ci ildə həyat yoldaşı, Azərbaycanın ilk qadın xalq komissarı Ayna Sultanova ilə birlikdə güllələnmişdir. 1950-ci illərdə isə bəraət almışdır.



### İttihamları rədd etsə də, güllələndi



SSRİ-də, ZSFSR və Azərbaycan SSR-də yüksək dövlət vəzifələri tutmuş dövlət xadimlərindən biri də Qəzənfər Musabəyovdur. O, 1911-ci ildə Bakı gimnaziyasını,1919-cu ildə Kiyev Universitetinin Tibb fakültəsini bitirmişdir. 1929-1931-ci illərdə Azərbaycan SSR MİK RH-nin sədri vəzifəsində çalışmış, bütün ömrünü sovet rejiminin bərqərar olmasına, möhkəmlənməsinə həsr etmişdir. Lakin həmin rejim onu "xalq düşməni" kimi ölüm hökmünə məhkum etmişdir.

Arxiv sənədlərindən məlum olur ki, Q.Musabəyov ona qarşı irəli sürülən ittihamları boynuna götürməsi üçün məruz qaldığı saysız-hesabsız işgəncələr nəticəsində artıq özünü idarə edə bilmirmiş. 1937-ci il iyul ayının 25-də SSRİ Xalq Daxili İşlər Komissarlığı onu Moskva şəhərindəki evində həbs edir. 1931-1936-cı illərdə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikaları Xalq Komissarları Sovetinin sədri vəzifəsində işlədiyi nəzərə alınaraq, o, Tbilisiyə gətirilir. Həmin il avqustun 2-də Gürcüstan SSR Xalq Daxili İşlər Komissarlığı Dövlət Təhlükəsizliyi İdarəsinin 3-cü şöbəsinin rəis müavini Viner tərəfindən arayış tərtib edilir: "1889-cu ildə anadan olmuş, Zaqafqaziya SFSR Xalq Komissarları Sovetinin sabiq sədri Musabəyov Qəzənfər Mahmudoviç əks-inqilabçı terrorçu və casusluq təşkilatının rəhbəri kimi ifşa olunub. Arayışa Çiçinadze, Getmanov, Xeçuyan və başqalarının ifadələri əlavə edilib".

1937-ci ilin avqustundan oktyabrınadək aparılan dindirilmə zamanı Q. Musabəyov ona qarşı sürülən bütün ittihamları rədd edib. 1937-ci il oktyabrın 29-da onunla sorğu-sualı Krimyan aparıb. Q.Musabəyov türk əks-inqilabi millətçi təşkilata rəhbərlik etdiyini etiraf edib və bu işdə yaxından iştirak edən 24 nəfərin də adını çəkib. 1937-ci il dekabrın 28-də verdiyi ifadədə Q. Musabəyov millətçi əks-inqilabi-terrorçu təşkilat rəhbərləri sırasına Mirbəşir Qasımovun da adını əlavə edib, bu antisovet mərkəzlərin Almaniya, Yaponiya və İran xəfiyyə orqanları ilə gizli əlaqə saxladığını bildirib. 1938-ci il fevralın 8-də Gürcüstan SSR XDİK yanında Xüsusi Üçlüyün qərarı ilə Qəzənfər Musabəyov güllələnməyə məhkum edilib.

Xüsusi qeyd olunmalıdır ki, Qəzənfər Musabəyov 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayın həm təşkilatçısı, həm də əsas rəsmi simalarından biri olmuşdur. O, SSRİ Mərkəzi İcraiyyə Komitəsinin (MİK) sədri kimi qurultayın keçirilməsi üzrə Təşkilat Komitəsinə rəhbərlik etmişdir. 1926-cı il fevralın 26-da İsmailiyyə binasında qurultayın açılışında təbrik nitqi ilə iştirakçıları salamlamışdır. Q.Musabəyov öz çıxışlarında qurultayın qarşısında duran mühüm vəzifələri, xüsusilə türk xalqlarının dili, tarixi və mədəniyyəti ilə bağlı ortaq problemlərin həlli zərurətini vurğulamışdır. O, ərəb əlifbasından latın qrafikalı əlifbaya keçid prosesinin ən fəal tərəfdarlarından və bu islahatın dövlət səviyyəsində həyata keçirilməsinə cavabdeh olan şəxslərdən biri idi. Bu insanın da həyatı saxta ittihamlarla yarıda qırılmışdır.

### "Biz qoymarıq ki, sən öz əcəlinlə gəbərəsən..."

1937-ci ildəki qurultayda Mircəfər Bağırov qəzəblənərək həkim, ictimai xadim, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri, inqilabçı və publisist Sultanməcid Əfəndiyevə demişdi: "Əfəndiyev, biz qoymarıq ki, sən öz əcəlinlə gəbərəsən. Biz vaxtında sənin axırına çıxacağıq, sənə divan tutacağıq". Doğrudan da sonradan ona divan tutuldu. O, əcəli ilə deyil, döyülərək, işgəncələrə məruz qalaraq güllələnib öldürüldü.

Onun həyatı, siyasi fəaliyyəti və publisistikası ilə tanış olanda aydın görünür ki, sovet hökumətinin quruculuğu, inkişafı üçün sözün əsl mənasında var qüvvəsi ilə çalışmışdı. Sonda isə bütün varlığı ilə bağlı olduğu həmin rejim onu "düşmən" kimi qələmə verib məhv etmişdi.

Sultanməcid Əfəndiyev 1887-ci ildə Şamaxıda anadan olub. 1904-cü ildən RSDFP üzvü, RSDFP Bakı Komitəsi yanında Hümmət qrupunun rəhbərlərindən olub, burada Məmməd Əmin Rəsulzadə, Məşədi Əzizbəyov, Nəriman Nərimanovla yaxın dostluq əlaqələri qurub.

Birinci Rus İnqilabında fəal iştirak edərək zəhmətkeşlər arasında təbliğat aparan S.Əfəndiyev inqilabi və antiçarizm fəaliyyətinə görə təqiblərə məruz qalıb. O, 1907-ci ilin fevral ayında Kazana sürgün olunub, daha sonralar Kazan Dövlət Universitetindən məzun olub həkimlik peşəsinə yiyələnib. S.Əfəndiyev burada da kommunist təbliğatı aparmağa davam edərək, fəhlələr arasında inqilabi işi gücləndirib.



1918-ci ilin 31 mart hadisələri dövründə S.Əfəndiyev "Jizn Nasionalista" qəzetində bu haqda məqalə çap etdirib. 1919-cu ilin avqustunda Həştərxanda dəmir polka daxil olub, bir qədər sonra RK(b)P MK yanında Şərq xalqları kommunist təşkilatlarının Mərkəzi bürosunun sədr müavini təyin edilib. 1919-cu ilin iyunundan Milli işlər üzrə xalq komissarlığı yanında Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissar olub. 1921-ci ilin yanvar ayında Xalq Maarifi Komissarlığı yanında Əlifba İslahatı üzrə Komissiya, az sonra - 1922-ci ilin mayında Yeni Türk Əlifba Komitəsi yaradılanda onun tərkibində Əfəndiyev də olub.

Yeni əlifba uğrunda mübarizədə S.Əfəndiyev fəallığı ilə seçilib. I Türkoloji Qurultayda latın qrafikasına keçidi qətiyyətlə müdafiə edən nümayəndələrdən biri idi. O, çıxışlarında latın əlifbasının türk xalqlarının tərəqqisi və kütləvi savadlanma üçün ən əlverişli vasitə olduğunu vurğulamışdır. Əleyhdarlara qətiyyətli cavablar vermişdir. O, ərəb əlifbasının saxlanılmasını istəyən mühafizəkar qüvvələrin arqumentlərinə qarşı çıxış etmiş, yeni əlifbanın texniki və iqtisadi üstünlüklərini qeyd etmişdir. Dövlət xadimi kimi, qurultayı "Şərq xalqlarının oyanışı" və elmi-mədəni inteqrasiya platforması kimi qiymətləndirmişdir.

O, qurultayda Azərbaycan SSR-in rəsmi nümayəndəsi kimi iştirak edərək, tədbirin siyasi və inzibati səviyyədə uğurla keçməsinə kömək etmişdir. Əfəndiyev bu tədbirdə türk dünyasının ortaq elmi və mədəni gələcəyi üçün radikal, lakin dövrünə görə mütərəqqi addımların atılmasını vacib sayırdı.

1937-ci ilin repressiyası ondan da yan keçməmişdir. Onu evindən aparıblar. Həyat yoldaşı Zivər xanımın xatirələrinə görə, Sultanməcid Əfəndiyevin istintaqı çox ağır keçib. Onu M.Bağırov özü işgəncələrlə dindirib. Axırıncı istintaq zamanı elə hala düşüb ki, onu xərəklə aparmalı olublar. Bu zaman M.Bağırovun ürəyi soyumur və əmr edir ki, müttəhimi xərəkdən yerə atsınlar. Belə də edirlər. Ölümcül haldaykən onu güllələyirlər.

### Rejimin daha bir qurbanı

Tənqidçi, ədəbiyyatşünas, publisist, 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü Mustafa Zəkəriyyə oğlu Quliyev 1893-cü ildə Şəki şəhərində anadan olub. Burada ibtidai və realnı məktəbi, Tiflisdə gimnaziyanı bitirib. Kiyev Universitetinin Fizika-riyaziyyat fakültəsində təhsil alıb.

Tələbəlik dövründə inqilabi hərəkata qoşulub, RK(b)P Kiyev komitəsi müsəlman bölməsinin sədri seçilib. Bakıda, Azərbaycan bolşeviklərinin gizli fəaliyyətində iştirak edib. Lənkəran qəzasında yerli bolşeviklərin köməyi ilə kəndlərdə partiya özəkləri yaradıb. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1920-ci ildə Lənkəran qəza inqilab komitəsinin sədri, 1921-1922-ci illərdə AK (b)P Qaraşəhər rayon komitəsinin katibi, 1922-1928-ci illərdə Azərbaycan SSR Xalq maarifi komissarı, 1923-1926, 1929-1932-ci illərdə "Maarif və mədəniyyət", onun xələfi "İnqilab və mədəniyyət" jurnallarının məsul redaktoru vəzifələrində işləyib.

M.Quliyev RK (b)P XI Qurultayında iştirak edib, Zaqafqaziya partiya təşkilatının bir qrup nümayəndəsi ilə Leninin qəbulunda olub. Moskvada Kommunist Akademiyasını bitirəndən sonra Qarayazı MTS-nin siyasi şöbə rəisi, Qazaxıstanın Çimkənd Şəhər Partiya Komitəsində katib, Odessa Vilayət Partiya Komitəsində şöbə müdiri işləyib, Azərbaycan MİK, Zaqafqaziya MİK, AK (b)P MK və BK üzvü seçilib.



Onun "Ə.Əbdülhəsənin "Dünya qopur" romanı haqqında", "S.Vurğun yaradıcılığı yüksəliş yolunda", "Sabir füqəra şairidir", "Yoldaş Nərimanov haqqında", "Azərbaycanda teatro və teatr məsələləri", "Hazırkı Azərbaycan ədəbiyyatı haqqında", "M.F.Axundovun yaradıcılığı", "Simurğun bədii yaradıcılığı", "Hüseyn Cavidin "Uçurum"u", "Zaqafqaziya xalqlarının mədəni birliyi", "Ədəbiyyat cəbhəsində mübarizə" və s. klassik və müasir Azərbaycan ədəbiyyatına dair məqalələri, "Oktyabr və türk ədəbiyyatı" kitabı mədəni irsə münasibətdə, sovet ədəbiyyatının nəzəri məsələlərində vulqar sosiologizm meyillərinə baxmayaraq, Azərbaycan sovet ədəbi tənqid və ədəbiyyatşünaslığının ilk nümunələri kimi qiymətlidir. Bunlar Azərbaycanda marksist estetika və ədəbi tənqidin yaranmasında və inkişafında faydalı olmuşdur. 1937-ci ildə Ukrayna K(b)P Odessa Vilayət Komitəsinin Məktəb və elm şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

Mustafa Quliyev 1937-ci ilin iyulunda Azərbaycanla bağlı əks-inqilabi millətçi qruplaşmanın rəhbəri olması ittihamı ilə Ukrayna Xalq Daxili İşlər Komissarlığının Odessa Vilayət İdarəsi tərəfindən həbs edilmiş, avqustun 4-də Bakıya gətirilmişdir. Dekabrın 1-də xalq düşməni adı ilə partiyadan çıxarılmış, 3 iyul 1938-ci ildə isə güllələnmişdir. Bunlar Mustafa Quliyev haqqında qısa bioqrafik məlumatlardır.

M.Quliyev 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultayın təşkilində və işində mühüm rol oynayan görkəmli ictimai-siyasi xadim, publisist və maarifçi olmuşdur. O, qurultayda Azərbaycan nümayəndə heyəti adından Rəyasət Heyətinin fəxri üzvü seçilmişdir. Əli bəy Hüseynzadə, akademik Nikolay Marr, Anatoli Lunaçarski və Vilhelm Tomsen kimi dünyaşöhrətli alimlərlə birlikdə qurultayın fəxri üzvləri və rəhbərliyi sırasında yer almışdır. O dövrdə Azərbaycan SSR-in xalq maarif komissarı kimi Mustafa Quliyev qurultayın yüksək səviyyədə təşkili üçün ciddi səy göstərmişdir. Mötəbər tədbirin əsas müzakirə mövzularından biri olan ərəb əlifbasından latın qrafikalı əlifbaya keçid məsələsində fəal mövqe tutmuş və bu islahatın tərəfdarı kimi çıxış etmişdir. Qurultayda türk xalqlarının mədəni və elmi inteqrasiyası, terminologiyanın vahidləşdirilməsi və təhsil sisteminin müasirləşdirilməsi məsələlərinə toxunmuşdur. Mustafa Quliyevin bu tarixi hadisədəki iştirakı onun həm siyasi xadim, həm də türk dünyasının elmi-mədəni birliyi ideyalarına sadiq bir ziyalı olduğunu nümayiş etdirir.

Ən yaxşı və bacarıqlı partiya rəhbərləri olan bu insanlar uğrunda mübarizə apardıqları rejim tərəfindən məhv edilmişlər, onlara əks-inqilabçı, millətçi, pantürkist damğası vurulmuşdur. Onlar kommunist ideyalarının işıqlı gələcəyinə bütün varlıqları ilə inanmışdılar. Uzun illər bu yolda çalışmış və mübarizə aparmışdılar. Amma sədaqətlə xidmət etdikləri quruluş bu insanlara xilaf çıxmış, bütün əziyyətlərini və əməklərini danmaqla kifayətlənməyib, onları ləkələmiş, şərləmiş və ölümə məhkum etmişdir. Bu, bir uçurum idi.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Tarixin izi ilə

# Müəllimin acı taleyi

**1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti XI Ordu tərəfindən süquta uğradıldıqdan sonra ermənilərin canfəşanlığı ilə Azərbaycanda gah gizlin, gah da açıq-aşkar ziyalılara qarşı işgəncələr, həbslər, sürgünlər, soyqırımı həyata keçirilirdi. Belə haqsızlıqlara məruz qalan ziyalılarımızdan biri də Şəmkirin İrmaşlı kəndindən Kamal müəllim olmuşdur.**



Kamal Allahverən oğlu Həsənov 1895-ci ildə ortabab kəndli ailəsində dünyaya göz açıb. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasında təhsil alan ilk şəmkirlilərdən olub. O, 1919-cu ildə seminariyanı bitirib Gəncə quberniyasının Zəyəm nahiyəsinin müxtəlif kəndlərində müəllim işləyib.

Bu o vaxtlar idi ki, Azərbaycanın qərb bölgəsində - Gəncədə, Dəstəfurda (indiki Daşkəsən), Gədəbəydə, Şəmkirdə, Zəyəmdə erməni-müsəlman çəkişmələri, milli münaqişələr həddini aşmışdı. Daşnaklar bolşeviklərlə birləşib azərbaycanlılara qarşı soyqırımı kampaniyasını gündən-günə gücləndirirdilər. Adamları dindirəndə rus dilində cavab verə bilməyənləri yerindəcə güllələyirdilər. Bu zaman İrmaşlının ucqar yerində - Qalaçada dördsinifli məktəbdə dərs deyən Kamal müəllim çox adamın dadına, köməyinə çatırdı. Kəndə bir bolşevik məmuru gələndə dərhal Kamal müəllimi tapıb qabağa verirdilər.

Kamal müəllim evli idi, qonşu qızı Həcərlə ailə həyatı qurmuşdu. 1923-cü ildə ilk övladı Xanım, 1925-ci ildə oğlu Əli dünyaya gəlmişdi. 1925-ci ilin payızında keçirilən yığıncaqda kənd camaatı bolşeviklərin namizədini yox, Kamal müəllimin kənd şurasının sədri olmasını təkid etdilər. Bolşevik və NKVD nümayəndələri nə qədər cəhd etsələr də, istədiklərinə nail ola bilmədilər. Müəllimliyi heç vaxt heç bir vəzifəyə dəyişmək arzusunda olmayan Kamal Həsənov kənd şurasının sədri işləyəndə onlarca insanı bolşevik təqibindən, işgəncədən, güllələnmədən, sürgündən və həbsxana zülmündən xilas etmişdi.

Dağ və aran İrmaşlının uşaqları pərakəndə halda, Varğada və Qalaçadakı şəraitsiz dördsinifli məktəblərdə oxuyurdular. Kamal müəllimin ən böyük arzusu kənddə məktəb tikdirmək idi. Bu barədə Gəncə Qəza Komitəsində məsələ qaldırsa da, sözünə qüvvət verən olmamışdı. Buna baxmayaraq, hansı məclisdə olurdusa, hansı ağsaqqalla söhbət edirdisə, azyaşlı uşaqları məktəbə oxumağa göndərmələrini tövsiyə edir, onlara hər cür kömək edəcəyini deyirdi.

Məhz bu kimi səbəblərdən bəzi məmurlar, erməni daşnakları Kamal müəllimə göz verib, işıq vermirdilər. Bir dəfə Zəyəmə yolu düşəndə (o zaman Zəyəm rayon mərkəzi hesab edilirdi və İrmaşdı ərazi vahidi kimi Zəyəmə tabe idi) yaxşı münasibətdə olduğu sıravi rusəsilli milis nəfəri ona yaxınlaşıb dedi: "Ay Kamal müəllim, bunlar səndən yaman yanıqlıdılar, ehtiyatlı ol, başqasını şura sədri qoymaq istəyirlər, ermənilərin əli ilə səni aradan götürməyə çalışırlar". Kamal müəllim özü də bunu hiss edirdi. Gəncə Qəza Komitəsində, İnqilabi Hökumətin yığıncaqlarında, eləcə də Zəyəmdə məmurlar dəfələrlə yerli-yersiz Kamal Həsənovu erməniləri müdafiə etməməkdə günahlandırırdılar.

O zaman daşnak yuvası olan Çardaxlıdan və keşiş Vahanın göstərişi ilə digər kəndlərdən olan erməni quldurlar tez-tez azərbaycanlıların dağda-dərədə otlayan qoyun-quzu sürülərinə basqın edir, çobanları öldürür, mal-qaralarını aparırdılar. Bu barədə Kamal müəllim Gəncə Qəza Komitəsinə və İnqilabi Hökümətə, milis idarəsinə dəfələrlə məlumat versə də, nəticəsi olmamışdı. Bir gün yenə kəndə xəbər yayıldı ki, Çardaxlı erməniləri Atabəylə Yuxari İrmaşlının arasında - Bulanıq dərəsindəki Avdı bulağının yanında çobanları döyüb, qoyun sürüsünü əllərindən alıblar. Kamal müəllim bunu eşidən kimi atını minib birbaşa Avdı bulağına tərəf çapır. Yolda görür ki, iki nəfər kənd sakini al qanın içindədir.

"Əyə, dığalar sürünü hara apardılar?" soruşan Kamal müəllim dayanmadan atını çobanların göstərdiyi səmtə çapır. Çardaxlıya çathaçatda erməniləri haqlayır, beşaçılanla ikisini güllələyir, birini də ölümcül yaralayır, bir neçəsi də qaçıb aradan çıxır. Kamal müəllim sürünün ağzını döndərir kəndə sarı.

Yolda çobanlara köməyə gedən camaata rast gəlir, qoyun-quzunu sahiblərinə verib, deyir ki, gedirəm Zəyəmə, İnqilabi Hökumətə məlumat verim. Məsələni rəhbərliyə danışıb, özünü milisə təqdim edir. Deyilənə görə, Kamal müəllim o gedən gedir. Kamal Həsənov 10 il müddətinə azadlıqdan məhrum edilir.

...Tiflisdə sürgünə göndərilən yüzlərlə "xalq düşməni"ndən Kamalı ayırıb dustaq daşıyan başqa bir vaqona mindirirlər. Tələbəlik illərində Tiflisdən Qoriyə gələndə həmişə bu platformadan qatara minib təxminən bir saatdan sonra Qoridə düşərdi. Odur ki, qatar tərpənəndə Kamal bildi ki, Batuma tərəf gedirlər. Səhərə yaxın qatar sürətini azaldıb dayananda Kamala elə gəldi ki, buradan da harasa uzaq bir yerə aparacaqlar. Amma vaqondan düşəndə gözlərinə inanmadı: "Bu ki, Qoridir", - deyib, səsini içinə qısdı, səhərin təmiz havasında doyunca içinə çəkdı. O qədər də böyük olmayan bu şəhərdə hər ünvan, hər tin ona tanış idi, yaxşı münasibətdə olduğu dostları çox idi. O sanki indi buraya həbsxanaya yox, ikinci dəfə təhsil almağa gəlmişdi. Bu xəyallardan onu kanvoyun əmranə səsi ayırdı...

İrmaşlı kəndinin ziyalılarından Sədi Qarayev deyir ki, Kamal Həsənov Qori həbsxanasında olanda da təmkinliyi, tədbirliyi və xeyirxahlığı ilə seçilib. Orada xeyli azərbaycanlı olub, əksəriyyəti də rus dilini bilmirmiş, onlar rus məmurları ilə danışıqlarında həmişə Kamal müəllimi çağırtdırarmışlar. O zaman yeni quruluşu qəbul etməyən və "xalq düşməni" kimi həbs edilən qaçaq Mayıl da Kamal müəllimlə bir yerdə olub. Malını-mülkünü şura hökumətinə vermədiyinə və yeni quruluşu bəyənmədiyinə görə, NKVD onu 5 il müddətinə azadlıqdan məhrum etməklə Qori həbsxanasına göndərmişdi. Amma Mayıl bu həbsxanadan heç 5 ay keçməmiş Kamal müəllimin köməyilə qaçmışdı.

Həbsxanadan 1935-ci ildə buraxılan Kamal müəllim həyət-bacada təsərrüfat işləri və saxladığı 3-4 baş qoyun-quzu ilə ailəsini birtəhər dolandırırdı. Onun 1937-ci ildə dördüncü övladı Məhəmməd dünyaya gələndən sonra tez-tez NKVD işçiləri ya qapısına gəlir, ya da Zəyəmə çağırırdılar ki, sovet hökumətinin əleyhinə filankəsə belə demisən, filan yerdə belə danışmısan... Əslində, bunlar bir bəhanə idi, əsas səbəb o idi ki, Çardaxlı ermənilərinin Kamal müəllimə verilən cəzadan ürəkləri soyumamışdı, hərləyib-fırlayıb onu birdəfəlik aradan götürməyə çalışırdılar. Təəssüf ki, 2 ildən sonra buna nail olurlar.

Yaxınlarının dedyinə görə, 1937-ci ilin oktyabr ayında, Kamal Həsənovu Tiflis həbsxanasından Ağstafaya gətirirlər. 15-20 dəqiqəlik "məhkəmə"dən sonra İnqilabi Hökumətin qərarı ilə o, "xalq düşməni" elan olunaraq Gəncə Fövqəladə üçlüyünün hökmü ilə sürgünə göndərilir.

Kamal müəllimin əmiləri, dayıları indi həyatda yoxdur, hətta 4 övladı da dünyasını dəyişib. Onun taleyi, tərcümeyihalı ilə bağlı əlimizə keçən yeganə nişanə, rəsmi sənəd əmisi oğlu, rəhmətlik Qəmbər kişinin sandığında 90 ildən bəri atası Səməddənqalma qəzetdə gördüyünüz bu fotoşəkildir. Müəllimin acı taleyini vərəqlədikcə ən yaxın qohumu Qəmbər kişi də bilməyib ki, Kamal müəllimin sonrakı aqibəti necə olub. İrmaşlı camaatına bircə o dəqiq məlumdur ki, Çardaxlı hayları ikisini güllələyib, birini də ölümcül yaraladığı quldur ermənilərin qisasını almaq üçün bolşeviklərin dəstəyilə onu əlli-ayaqlı itiriblər.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Məsafədən cərrahiyyə

## Rəqəmsal inkişaf və süni intellekt tibdə yeni dövrün əsasını qoyur

**Texnoloji yeniliklər həyatın demək olar ki, bütün sahələrini köklü şəkildə dəyişdirir. İnformasiya texnologiyalarının sürətli inkişafı, süni intellekt sistemlərinin geniş tətbiqi və rəqəmsal transformasiya prosesləri artıq təkcə iqtisadiyyat və sənaye sahələrini deyil, gündəlik məişəti, təhsili, idarəetməni və səhiyyəni də əhatə edir.**






Müasir dövrdə texnologiya yalnız rahatlıq yaradan vasitə deyil, həm də cəmiyyətlərin inkişafını müəyyən edən əsas amillərdən birinə çevrilib. Bu baxımdan rəqəmsallaşma və süni intellektin tətbiqi qlobal miqyasda dövlətlərin strateji prioritetləri sırasında yer alır.

Dünyada gedən proseslər göstərir ki, gələcək inkişaf məhz texnoloji yeniliklərin tətbiqindən, məlumatların idarə olunmasından və rəqəmsal infrastrukturların qurulmasından asılı olacaq. Süni intellekt texnologiyaları artıq istehsal proseslərində, logistika və nəqliyyatda, maliyyə sistemində, təhsildə və elmi tədqiqatlarda geniş istifadə olunur. Bu sistemlər böyük məlumat bazalarını analiz etməklə qərarların daha sürətli və dəqiq qəbul edilməsinə kömək edir. Nəticədə məhsuldarlıq artır, resurslardan səmərəli istifadə olunur və yeni imkanlar yaranır.

Rəqəmsallaşmanın mühüm təsir göstərdiyi sahələrdən biri də səhiyyədir. Müasir tibdə artıq süni intellekt diaqnostika prosesində istifadə olunur, tibbi görüntülərin təhlili avtomatlaşdırılır, xəstəliklərin erkən mərhələdə aşkarlanması üçün müxtəlif proqram təminatları hazırlanır. Həmçinin robot texnologiyaları və telemedisin sistemi sayəsində həkimlərin imkanları daha da genişlənir. Bu yeniliklər nəticəsində tibbi xidmətlərin keyfiyyəti yüksəlir, xəstələr daha sürətli və dəqiq müalicə ala bilirlər.

Azərbaycan da bu qlobal texnoloji dəyişikliklərdən kənarda qalmır. Ölkədə rəqəmsal transformasiya dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Son illər elektron xidmətlərin genişləndirilməsi, rəqəmsal platformaların tətbiqi, informasiya texnologiyaları infrastrukturunun inkişafı bu istiqamətdə atılan addımların bir hissəsidir. Dövlət qurumlarında elektron xidmətlərin tətbiqi və rəqəmsal platformaların yaradılması vətəndaşlara göstərilən xidmətlərin daha operativ və şəffaf olmasına imkan yaradır. Fevralın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən və "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə bu istiqamətdə görülən işlərin və qarşıda duran vəzifələrin əhəmiyyətini bir daha göstərdi. Müşavirədəki çıxışında Prezident İlham Əliyev qeyd etdi ki, dünyada baş verən texnoloji dəyişikliklər və yeni trendlər artıq aydın şəkildə görünür. Dövlət başçısının sözlərinə görə, süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması və rəqəmsallaşma ilə bağlı həyata keçirilən islahatlar faktiki olaraq ölkələrin gələcək inkişafını müəyyən edən əsas amillərdir.

Bu baxımdan Azərbaycanın qarşıya qoyduğu məqsəd rəqəmsal texnologiyaların tətbiqini genişləndirmək, innovativ iqtisadiyyatın formalaşmasına nail olmaq və müasir texnoloji infrastrukturu gücləndirməkdir. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı, startap ekosisteminin dəstəklənməsi, data mərkəzlərinin yaradılması və süni intellekt layihələrinin təşviqi bu istiqamətdə həyata keçirilən siyasətin əsas komponentlərini təşkil edir.

Süni intellekt və rəqəmsal texnologiyalar təkcə iqtisadi və idarəetmə sahələrində deyil, həm də səhiyyədə inqilabi dəyişikliklərə səbəb olur. Müasir dövrdə robot texnologiyalarının köməyi ilə aparılan cərrahi əməliyyatlar artıq bir çox ölkədə tətbiq olunur. Robot cərrahiyyəsi yüksək dəqiqlik, minimal invaziv müdaxilə və daha qısa bərpa müddəti kimi üstünlükləri ilə seçilir. Bu texnologiyalar həkimlərin mürəkkəb əməliyyatları daha təhlükəsiz şəkildə həyata keçirməsinə imkan yaradır.

Tibdə texnologiyanın ən diqqətçəkən yeniliklərindən biri isə uzaqdan həyata keçirilən cərrahi əməliyyatlardır. Telecərrahiyyə adlandırılan bu üsul sayəsində həkimlər minlərlə kilometr uzaqlıqda yerləşən xəstələri robot sistemləri vasitəsilə əməliyyat edə bilirlər. Bu texnologiya xüsusilə ucqar və ya tibbi imkanların məhdud olduğu bölgələrdə yaşayan insanlar üçün böyük əhəmiyyət daşıyır. Belə yeniliklərdən biri Böyük Britaniyada baş verib. Cərrah robot texnologiyasının köməyi ilə təxminən 2400 kilometr uzaqlıqda yerləşən xəstəni uğurla əməliyyat edib. Bu hadisə Böyük Britaniyada telecərrahiyyə sahəsində ilk nümunələrdən biri kimi qiymətləndirilir və tibdə yeni mərhələnin başlanğıcı hesab olunur.

Cərrah Prokar Dasqupta Londondan idarə etdiyi robot sistemi vasitəsilə Cəbəllütariqdə yerləşən 62 yaşlı xəstə Pol Bakstonu əməliyyat edib. Cərrahın sözlərinə görə, robot sistemini idarə etmək adi əməliyyatdan demək olar ki, fərqlənməyib. O bildirib ki, əməliyyat zamanı özünü sanki xəstənin yanında, əməliyyat otağında hiss edib. Bu isə müasir robot texnologiyalarının nə qədər inkişaf etdiyini və cərrahlara real vaxt rejimində dəqiq nəzarət imkanı yaratdığını göstərir.

Bu innovativ eksperimentin bir hissəsi olmaqdan məmnunluğunu bildirən pasiyentin sözlərinə görə, telecərrahiyyə üsulu ona Böyük Britaniyaya gedərək müalicə almaq məcburiyyətindən xilas olmağa imkan verib. Bakston deyib ki, əgər Cəbəllütariqdə belə bir əməliyyat həyata keçirilməsəydi, o, müalicə üçün Londona uçmalı, növbə gözləməli və əməliyyatdan sonra bir neçə həftə orada qalmalı olacaqdı. Buna görə də bu üsul onun üçün ən uyğun və rahat seçim olub.

Ötən ay keçirilən əməliyyat zamanı istifadə olunan "Toumai robotic surgical system" adlı robotik cərrahiyyə sistemi yüksək texnologiyalarla təchiz olunub. Sistem yüksəkkeyfiyyətli üçölçülü kamera və dörd manipulyator vasitəsilə əməliyyatın dəqiq aparılmasını təmin edir. Cərrah xüsusi konsol vasitəsilə bu manipulyatorları idarə edərək əməliyyat prosesinə nəzarət edir. Bu texnologiya sayəsində cərrahın hərəkətləri robotun dəqiq mexaniki hərəkətlərinə çevrilir. Robot sistemi ilə əməliyyat otağı arasında əlaqə optik lif kabelləri vasitəsilə təmin olunub. Bundan əlavə, rabitənin kəsilməsinin qarşısını almaq üçün ehtiyat olaraq 5G bağlantısı da yaradılıb. Texniki göstəricilərə görə, siqnalın gecikməsi cəmi 0,06 saniyə təşkil edib ki, bu da əməliyyatın təhlükəsiz və fasiləsiz həyata keçirilməsi üçün kifayət qədər aşağı göstərici hesab olunur. Hər hansı texniki nasazlıq baş verəcəyi təqdirdə xəstənin yanında yerli tibbi komanda da hazır vəziyyətdə olub. Bu isə əməliyyatın təhlükəsizliyini daha da artırıb.

Mütəxəssislərin fikrincə, uzaqdan robotlaşdırılmış cərrahiyyə texnologiyası gələcəkdə səhiyyə sistemində mühüm rol oynaya bilər. Bu texnologiya sayəsində dünyanın müxtəlif yerlərində yaşayan xəstələr ən yaxşı mütəxəssislərin xidmətlərindən istifadə edə biləcəklər. Həmçinin ucqar və tibbi imkanların məhdud olduğu bölgələrdə yaşayan insanlar üçün mürəkkəb əməliyyatlara çıxış daha əlçatan olacaq.

Bu sahədə artıq növbəti addımlar da planlaşdırılır. Martın 4-də Cəbəllütariqdə başqa bir pasiyent üzərində ikinci sınaq əməliyyatı həyata keçirilib. Bundan əlavə, növbəti prosedurun Avropa Urologiya Assosiasiyasının konqresi zamanı təxminən 20 min uroloqa canlı yayımla nümayiş etdirilməsi planlaşdırılır.

Bütün bunlar göstərir ki, rəqəmsal transformasiya yalnız texnoloji tərəqqi deyil, həm də insanların həyat keyfiyyətinin yüksəlməsi deməkdir. Gələcəkdə bu cür innovativ texnologiyaların daha geniş tətbiqi səhiyyə sisteminin daha əlçatan, effektiv və müasir olmasına töhfə verəcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
CƏNUBİ QAFQAZA YENİ YANAŞMANIN QURUCUSU
Azərbaycanın regional rolu heç vaxt görünmədiyi qədər önəmlidir
Vladimir Putin İlham Əliyevə minnətdarlığını bildirib
Azərbaycan-ABŞ strateji tərəfdaşlığı inkişaf mərhələsindədir
Xəzərdə də "Qarabağ"ımız var
Qlobal fikir ayrılıqlarının, ziddiyyətlərin aradan qaldırılması vacibdir

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# "Qoca qitə" lider böhranı yaşayır

## Avropa ölkələri liderlərinin reytinqləri aşağı düşür



Sosioloqların fikrincə, Almaniya Kansleri Fridrix Merts ölkəsində mövqelərini itirir. Onun partiyası əsas seçkilərdə qalib gələ bilməyib. Avropanın bir sıra ölkələrinin liderləri də xalqın dəstəyini qazanmaqda çətinlik yaşayırlar.

Kansler Fridrix Mertsin rəhbərlik etdiyi Xristian Demokrat İttifaqı (CDU) Almaniyanın üçüncü ən böyük əyaləti olan Baden-Vürtemberqdə keçirilən seçkilərdə birinci yeri tuta bilməyərək geriləyib. Səsvermədə "Yaşıllar" Partiyası səslərin 30,2 faizini qazanaraq CDU-nu üstələyib ki, bu da onların Mertsin partiyası ilə koalisiyada əyaləti idarəetmə ehtimalını artırır. "Almaniya üçün Alternativ" Partiyası (AfD) isə 2021-ci ildə keçirilmiş əvvəlki seçkilərlə müqayisədə nəticəsini təxminən ikiqat artıraraq 18,8 faiz səslə üçüncü yeri tutub.

Seçkilərin nəticələri təxminən bir il əvvəl vəzifəyə başlayandan bəri yerli sosioloqların kanslerə inamın azaldığını göstərən qənaətini təsdiqləyib. Avropa sorğu mərkəzi YouGov-un məlumatları göstərir ki, Mertsin bəyənilmə reytinqi 2025-ci ilin iyun ayından bəri 34 bal azalıb. Araşdırmaya əsasən, almanların yalnız 23 faizi Mertsə müsbət, böyük əksəriyyəti, yəni 71 faizi isə mənfi münasibət bəsləyir.

Daxili sorğular oxşar, lakin bir qədər müsbət mənzərəni göstərir. Son "ZDF siyasi barometri"nə görə, almanların 54 faizi Mertsin kansler kimi zəif iş gördüyünə inanır. Yalnız 43 faizi onun fəaliyyətini müsbət qiymətləndirir. Eyni sorğu göstərib ki, respondentlərin 10 nəfərindən 6-sı Mertsin gələcəkdə XDİ-yə səmərəli rəhbərlik edə biləcəyinə şübhə ilə yanaşır. 34 faizi isə bunun əksini düşünür.

F.Merts həmçinin -0,5 reytinqi ilə digər alman siyasətçilərindən geri qalır. Müdafiə naziri Boris Pistorius bu reytinqə +2,1 balla başçılıq edir.

Manheym Universitetindən politoloq Mark Debus "Euronews" telekanalına açıqlamasında bildirib ki, bu azalma qismən hökumətin vəd etdiyi islahatların tempindən məyusluğu əks etdirir: "CDU/CSU və Fridrix Mertsin rəhbərliyindəki hökumət seçki kampaniyası zamanı dəyişikliklərin tez bir zamanda baş verəcəyinə və islahatların tezliklə başlayacağına söz vermişdi. Lakin bu islahatlar ya ümumiyyətlə qəbul edilmədi, ya da vəd edildiyi kimi tez bir zamanda həyata keçirilmədi. Yalnız bu ilin qış və yazında iqtisadi və sosial siyasətdə əsas dəyişikliklər edildi". O əlavə edib ki, Baden-Vürtemberqdəki kimi regional seçkilər milli səviyyədə siyasi ovqatın barometri hesab edilə bilər - seçicilər səsvermə bülletenini işarələməklə federal hökumətdən narazılıqlarını və ya onu təsdiqlədiklərini bildirirlər.

F.Mertsin zəif mövqeyi Avropada liderlərə olan inamın azalmasının daha geniş tendensiyasını əks etdirir. YouGov-a görə, Fransa Prezidenti Emmanuel Makron sonuncu yerdədir - fransızların yalnız 19 faizi onun haqqında müsbət fikirdədir. Onun dəstəyi son bir il ərzində davamlı olaraq aşağı səviyyədə qalıb, 2025-ci ilin avqust-sentyabr aylarında kəskin azalıb və yalnız 2026-cı ilin əvvəlində bir qədər bərpa edilib.

Makron populyar olmayan Fransa prezidentləri siyahısında tək deyil. Onlar nadir hallarda yüksək bəyənmə reytinqlərinə malik olurlar. 2016-cı ildə Fransanın keçmiş prezidenti Fransua Olland əhalinin yalnız 4 faizi tərəfindən dəstəklənmişdi.

Böyük Britaniyanın Baş naziri Kir Starmerin də reytinqi aşağıdır: britaniyalıların yalnız 21 faizi onun fəaliyyətini müsbət qiymətləndirir, 71 faizi isə bəyənmir. Amma İspaniya və İtaliyanın baş nazirləri öz ölkələrində daha populyardırlar - ispanların 32 faizi Pedro Sançesi müsbət qiymətləndirir, 35 faizi isə Corcia Melonini bəyənir. Hər iki liderin reytinqləri ümumiyyətlə sabitdir. Danimarkanın Baş naziri Mette Frederiksen 6 lider arasında ən populyardır və ABŞ Prezidenti Donald Trampın Qrenlandiyaya qarşı yeni təhdidləri fonunda danimarkalıların 43 faizi onun fəaliyyətini müsbət qiymətləndirir. Bununla belə sorğuların nəticələrinə görə, liderlərdən heç biri mütləq əksəriyyətin etimadını qazana bilməyib.

Debus qeyd edib ki, Avropa hökumətləri Rusiyanın Ukraynaya müdaxiləsi kimi beynəlxalq böhranlar səbəbindən seçki vədlərini yerinə yetirməkdə çətinlik çəkirlər və bu böhranlar iqtisadi vəziyyətin zəifləməsinə səbəb olur: "Məsələn, hazırda digər sahələrin hesabına müdafiəyə daha çox vəsait ayrılır. Bu, seçicilərin hökumətdən narazılığının artmasına səbəb olur".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Bu günün hava proqnozu açıqlanıb

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, martın 13-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin səhər bəzi yerlərdə az çiskinli olacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-5, gündüz 7-10 dərəcə isti olacaq. Atmosfer təzyiqi 772 millimetr civə sütunundan 769 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-6, gündüz 9-14 dərəcə isti, dağlarda gecə 5-10 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5 dərəcə şaxta, bəzi yerlərdə 3 dərəcəyədək isti, gündüz 8-13 dərəcə isti olacağı gözlənilir.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə az yağıntılı olacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5 dərəcə şaxta, bəzi yerlərdə 3 dərəcəyədək isti, gündüz 3-8 dərəcə isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-4 dərəcə isti, dağlıq ərazilərdə 8-11 dərəcə şaxta, gündüz 4-9 dərəcə isti olacağı bildirilir.



Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalanda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə az yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi arabir güclənəcək. Havanın temperaturu gecə 2-5, gündüz 8-13 dərəcə isti müşahidə ediləcək.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə az yağıntılı olacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi arabir güclənəcək. Havanın temperaturunun gecə 0-4, gündüz 7-11 dərəcə isti, dağlarda gecə 5-10 dərəcə şaxta, gündüz 0-5 dərəcə isti olacağı ehtimalı var.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-6, gündüz 9-14 dərəcə isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-5, gündüz 9-12 dərəcə isti, dağlarda gecə 2 dərəcə şaxtadan 2 dərəcəyədək, gündüz 3-8 dərəcə isti olacaq.

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri Ağalar Vəliyev və səhmdar cəmiyyətin kollektivi Ramiz və Lətif Cahangirovlara əzizləri

**NİZAMİ CAHANGİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları Azər Sanılıya əzizi

**ARİF İSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini Anar Kərimova əzizi

**ETİBAR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **3374**
Sifariş **346**

Qiyməti 60 qəpik